**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# HEYDƏR ƏLİYEV NİTQİNİN ARXİTEKTONİKASI, EKSPRESSİVLİYİ VƏ ÜSLUBİ – QRAMMATİK XÜSUSİYYƏTLƏRİ

İxtisas: 5706.01 – Azərbaycan dili

Elm sahəsi: Filologiya

İddiaçı: **Nağdəli Tapdıq oğlu Zamanov**

Elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun Müasir Azərbaycan dili şöbəsində yerinə yetirilmişdir.

Elmi məsləhətçi: filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü
**Möhsün Zellabdin oğlu Nağısoylu**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**İsmayıl Oruc oğlu Məmmədli**

filologiya elmləri doktoru, professor
**İlhamə Həbib qızı Hacıyeva**

filologiya elmləri doktoru, dosent
**Ədalət Məhəmmədəli oğlu Abbasov**

filologiya elmləri doktoru, dosent
**Əzəmət Murtuza oğlu Rüstəmov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.06 Dissertasiya şurası

Dissertasiya Şurasının sədri: filologiya elmləri doktoru, professor
_______________ **Nadir Balaoğlan oğlu Məmmədli**

Dissertasiya Şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
_______________ **Sevinc Yusif qızı Məmmədova**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
_______________ **Məmmədov Məhərrəm Əvəz oğlu**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Mövzunun aktuallığını şərtləndirən ən başlıca amil Ulu Öndər Heydər Əliyevin aşağıdakı fikirləridir: *"...Ancaq bir var ki, Azərbaycan dilində oxuyursan, bir də var ki, dilin incəliklərini bilirsən, Azərbaycan dilində yüksək səviyyədə söz deyə bilirsən, fikrini ifadə edə bilirsən, nitq edə bilirsən. Bu, hələ bizdə çox çatışmayan bir sahədir"* [1].

Ulu Öndərin xalqın təkidli tələbi və xahişi ilə yenidən iqtidara gəlişi cəmiyyətin bütün sahələrində müsbət sferanın formalaşması ilə nəticələndi. Ayrı-ayrı istiqamətlər üzrə yeni tədqiqat obyekti, təhlil və araşdırma hədəfləri meydana çıxdı. Xüsusilə cəmiyyətin ana dili və dövlət dili məsələlərinə münasibəti dəyişdi. Nəticədə "Heydər Əliyev və Ana dili", "Heydər Əliyev və Dövlət dili", eyni zamanda "Heydər Əliyev və Nitq mədəniyyəti" mövzularında mükəmməl tədqiqat işləri aparmaq zəruriyyəti yarandı.

Azərbaycan xalqının əsrlər boyu yaratdığı mədəniyyətin mühüm tərkib hissələrindən biri də onun nitq mədəniyyətidir. Yüksək natiqlik mədəniyyəti, dildən səmərəli istifadə etikası məhz dil daşıyıcılarının hesabına reallaşır. İslam filosofu Həzrət Əli, Şərq dünyasının böyük alimi Əli ibn Sina, şair və filosoflar Əbülqasim Firdovsi, Əbu Reyhan Biruni, Mahmud Kaşğarlı və başqaları danışıq prosesinin etik qaydaları, ibrətamiz fikirlər, ritorika elmi, onun qanunauyğunluqları, söz sənəti, gözəl danışmağın cəmiyyət ünsiyyətindəki rolu və s. ilə bağlı dəyərli fikirlər söyləmişlər.

Ümummilli lider Heydər Əliyevin nitqi məzmun və forma gözəlliyi, eləcə də aforistik keyfiyyəti, müdrik fikrliliyi və digər müsbət cəhətləri ilə heç də sələflərinin nitqindən geri qalmır. İndiyədək bu aspektdə aparılan tədqiqatlarda əsasən "Heydər Əliyev və Ana dili", "Heydər Əliyev və Dövlət dili" məsələləri tədqiqat obyekti kimi daha çox araşdırılmışdır. Dissertasiya işində bu önəmli cəhətlərlə yanaşı, ilk dəfə Heydər Əliyev nitqi ekspressiv elementləri və üslubi-qrammatik xüsusiyyətləri baxımdan təfsilati şəkildə

---

[1] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.21. –2007. – s.255.

araşdırılır. Ulu Öndərin nitqinin mövzu rəngarəngliyi, məzmun çeşidliyi, məntiqi-semantik ardıcıllıq və fəlsəfi məna dərinliyi tədqiqat hədəfi kimi vəhdət təşkil edir ki, bu da işin aktual xarakterə malik olmasının göstəricisi hesab edilə bilər.

Qeyd etdiyimiz kimi indiyədək aparılan tədqiqat işlərində Heydər Əliyev nitqinin müxtəlif cəhətləri öyrənilsə də, morfoloji aspekti xüsusi olaraq araşdırılmamışdır. Nitq hissələrinin qrammatik əlamətləri, nitqdə işlənmə mövqeləri təhlil edilməmişdir. Bir sözlə, Heydər Əliyev nitqinin üslubi-qrammatik xüsusiyyətləri, həmin nitqdə nitq hissələrinin məna növləri üzrə işlənmə tezliyi ilk dəfə tədqiqata cəlb edilmişdir.

Mövzunun işlənmə dərəcəsinə gəldikdə qeyd etmək lazımdır ki, müasir Azərbaycan siyasi natiqliyinin banisi kimi Heydər Əliyevin nitqinin öyrənilməsi müstəqillik dövründən sonraya təsadüf edir. Keçən bu dövrdə görkəmli dilçi alim və mütəxəssislərin nitq mədəniyyətinin inkişafına töhfə ola biləcək bir sıra tədqiqat, monoqrafik, eləcə də elmi və publisistik əsərləri işıq üzü görmüşdür. Akademik Nizami Cəfərovun Azərbaycan nitq mədəniyyətinin inkişafında Heydər Əliyevin dil siyasəti barədə yazdığı fikir buna bariz nümunə ola bilər: *"Nitq mədəniyatinin inkişafının əsasında ölkədə həyata keçirilən mükəmməl dövlət dil siyasəti dayanır və bu siyasətin əsaslarını Ulu Öndər Heydər Əliyev müəyyən etmişdir"*[2].

Bundan əlavə Ulu Öndərin dil siyasəti və nitqi haqqında tanınmış dilçi-alimlərdən Azərbaycan alimlərinin fikir və müddəaları ədəbiyyatda öz əksini tapmışdır. A. Axundov, M. Nağısoylu, N. Məmmədli, M.Hüseynova, S.Sadıqova, N. Şəmsizadə, M.Mahmudov, M.Məmmədov və başqaları qiymətli fikir və müddəalar irəli sürərək bu sahəyə xüsusi diqqət yetirmişlər[3].

---

[2] Cəfərov, N. Ümumi dilçilik / N. Cəfərov. – Bakı: Təhsil, – 2023, – 216 s.

[3] Məmmədli, N. Azərbaycan dili və nitq mədəniyyəti (norma, nitq mədəniyyəti sahələri və nitqə verilən tələblər) IIc. / N. Məmmədli. – Bakı: Elm və təhsil, – 2022, – 512 səh. Mahirə Hüseynova, Sayalı Sadıqova. Heydər Əliyev və Azərbaycan dilinin inkişaf konsepsiyası. – Bakı: Elm, – 2023, – 372 s. Şəmsizadə, N. Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti // Xalq qəzeti. –2013, 31 oktyabr. – s.5. Xudiyev, N. Heydər Əliyev və Azərbaycan dili. Bakı, "Təhsil", – 1997, – 288 səh. Mahmudov, M. Heydər Əliyev: Azərbaycan

Mövzunun işlənmə dərəcəsinin əhatə dairəsi baxımından genişliyini təzahür etdirən amillərdən biri kimi onun nüfuzlu elmi səciyyəli mətbu orqanlarda dərc edilməsini, o cümlədən beynəlxalq və respublika elmi konfranslarında dinlənilməsini qeyd etmək mümkündür. Bir məsələni xüsusi nəzərə çatdırmaq kifayətdir ki, Heydər Əliyevin nitqi ilə bağlı dilçi alimlərin elmi işləri Bakı Slavyan Universitetində "Azərbaycanşünaslığın aktual problemləri", Bakı Dövlət Universitetində "Filologiyanın aktual problemləri", AMEA Nəsimi adına Dilşilik İnstitutunda "Heydər Əliyevin dil siyasəti və ana dilinin müasir problemləri" mövzusunda beynəlxalq və respublika elmi konfranslarının materiallarında müəyyən qədər işıqlandırılmışdır.

İndiyədək aparılan tədqiqatlarda Heydər Əliyev nitqinin müxtəlif cəhətləri öyrənilsə də, ictimai-siyasi dövrlərdən asılı olaraq ədatların, modal sözlərin işlənməsi diqqətdən kənarda qalmış, ictimai-siyasi dövrün mənzərəsi ilə nitq hissələrinin vəhdəti araşdırma mövzusu olmamışdır. Ədatların məna növləri üzrə işlənmə tezliyi ilk dəfə bu dissertasiyada hərtərəfli və sistemli şəkildə tədqiqata cəlb edilmişdir.

Siyasi xadimlərin nitqlərinin bir gücü də onların zamanında verdiyi proqnozlarla bağlıdır ki, Heydər Əliyev çıxışlarının yaddaqalan olmasında bu nitq elementinin tədqiqinə ehtiyac duyulur. Bu gün də proqnozların nitqə ekspressivlik qazandırması siyasi natiqlikdə öyrənilməmiş sahə kimi qalmaqdadır. Nitqə ekspressivlik qazandıran səmimiyyət, qətiyyət, nikbinliklə yanaşı, Heydər Əliyev nitqində dialektik qanun və kateqoriyalara əsaslanan fəlsəfilik də indiyədək araşdırma mövzusu olmamışdır.

Heydər Əliyev nitqi əsasən ictimai-publisistik üslubda auditoriyalara yönəlir. Rəsmi üslubda bir sıra normativ sənədlərə

---

dili və azərbaycançılıq Bakı: Elm və təhsil, – 2023, – 256 səh. Nağısoylu, M.Z. Heydər Əliyev və Azərbaycan dili // Türkologiya, №2, s.36-46. 2017. Nağısoylu, M.Z. Heydər Əliyevin Azərbaycan dilinin dövlət dili kimi fəaliyyətində tarixi xidmətləri // Türkologiya, №1, 2023, -s.55-64.

baxılmış, elə bu üslubda da digər üslubların bu və ya başqa dərəcədə çalarları üzə çıxmışdır.

Heydər Əliyevin nitqində frazeologizmlərin ayrıca tədqiqi, onun frazeoloji lüğətinin tərtibi də aktual məsələlər sırasındadır. Ulu Öndərin xarakterinin açılmasında frazeologizmlərin yeri, frazeologizmlərin digər nitq vahidləri ilə birgə ekspressivlik yaratması, müxtəlif üslublarda işlənmə məsələləri indiyədək tədqiqata cəlb edilməmişdir.

Dissertasiyada Heydər Əliyevin nitqinə kompleks və sistemli şəkildə yanaşılmış, nitqdə ekspressivliyi gücləndirmək üçün istifadə olunan nitq elementləri (fəlsəfilik, səmimiyyət, qətiyyət, nikbinlik, proqnozlar, poetik duyğular), üslublar (elmi, publisistik, məişət, dini), əsas (say, əvəzlik, feil, zərf) və köməkçi (qoşma, bağlayıcı, ədat, modal sözlər) nitq hissələrinin üslubi xüsusiyyətləri, eləcə də leksikoloji vahidlər (frazeologizmlər, sinonimlər) və sintaktik vahidlər (mürəkkəb cümlə, ritorik suallar) nitq mədəniyyəti kontekstində ətraflı araşdırılmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Heydər Əliyevin (məzmun-forma, mövzu-ideya və növündən asılı olmayaraq) nitqi, işin predmeti isə Heydər Əliyev nitqinin arxitektonikası və ekspressiv elementlərinin bədii dil faktları əsasında müəyyən edilməsi, bu nitqin üslubi-qrammatik xüsusiyyətlərinin vəhdətdə təhlilidir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın məqsədi Heydər Əliyevin nitqi üzrə arxitektonik cəhətləri və üslubi-qrammatik xüsusiyyətləri araşdırmaya cəlb etmək, onları nitqin ayrı-ayrı parametrləri (məzmunu, forması, kommunikativ mövqeyi, ekspressivliyi, növləri və s.) ilə vəhdətdə öyrənməkdir. Göstərilən məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

– Heydər Əliyevin nitqinin arxitektonikasını, nitqindəki məntiqi ardıcıllığın, giriş və sonluq hissələrin özünəməxsusluğunu müəyyənləşdirmək;

– Heydər Əliyevin nitqinin ekspressivliyini yüksəldən nitq elementlərini – fəlsəfilik, səmimiyyət, qətiyyət, nikbinlik və proqnozları ayrı- ayrılıqda tədqiq etmək;

– Heydər Əliyevin çıxışlarında üslubları və üslublararası əlaqələri linqvistik baxımdan öyrənmək;
– rəsmi-işgüzar üslubun səciyyəviliyini göstərmək;
– elmi üslublu nitqi təhlil etmək;
– publisistik üslubun spesifik cəhətlərini araşdırmaq;
– bədii üslubun özəlliklərini tədqiq etmək;
– məişət çalarlı nitqin üslubi mövqeyini müəyyənləşdirmək;
– Heydər Əliyevin nitqində frazeologizmlərin işlənmə məqamlarını müəyyənlşdirmək ;
– sinonimlərin özünəməxsusluğunu araşdırmaq;
– Heydər Əliyevin nitqində əsas (say, əvəzlik, feil, zərf) və köməkçi (qoşma, ədat, bağlayıcı, modal sözlər) nitq hissələrinin üslubi xüsusiyyətlərini, nitqdə işlənmə tezliyini araşdırmaq.

**Tədqiqatın metodları.** Dissertasiyada dilçiliyin ənənəvi tədqiqat metodlarından – təsviri, müşahidə, tarixi-müqayisəli, eləcə də sistemli təhlil üsullarından geniş istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– Azərbaycan siyasi natiqliyinin banisi Heydər Əliyevin nitqinin tədqiqi ümumən nitqin mövzu-ideya, məzmun-forma baxımdan müəyyənləşdirilməsinə, ədəbi dilin üslublarının müqayisə edilməsinə və stilistik məqamların dəqiqləşdirilməsinə imkan verir;

– Nitq arxitektonikasının tədqiqi nitqlərarası əlaqəni yaradan amillərin, giriş və sonluq hissələrin müəyyənləşdirilməsinə, eləcə də mətndaxili və cümlədaxili semantik-məntiqi ardıcıllığın linqvistik istiqamətlərinin öyrənilməsinə əsas verir;

– Auditoriyanı inandırmaq, nitqin ekspressivliyini təmin etmək, müsahibinin diqqətini çəkmək gücündə olan nitq elementlərinin –fəlsəfi, etik, estetik fikirlərin, qətiyyət, səmimiyyət, nikbinlik və proqnozların dilçilik aspektində kompleks yanaşma üsulu ilə təhlili Heydər Əliyev nitqinin çoxaspektli öyrənilməsini stimullaşdırır;

– Təküslubluğa sığmayan Heydər Əliyev nitqində üslubların nitq elementləri ilə vəhdətdə öyrənilməsi natiqlik sənətinin gələcək inkişafında perspektivlər yaradır;

– Heydər Əliyevin nitqinin məzmununun güclənməsində mühüm əhəmiyyətə malik digər linqvistik amillərin təhlili ilə yanaşı

frazeoloji leksik vahidləırin müəyyənləşdirilməsi dilçiliyin leksikologiya bölməsinin yeni bir qatının daha dərindən tədqiqini zəruri edir;

– Heydər Əliyevin nitqində işlənən leksik vahidlərin müxtəlif məna qrupu ilə bərabər, sinonimlərin qabarıq nəzərə çarpması və təhlilə cəlb edilməsi dilin sinonimlər sisteminin üslubi-qrammatik istiqamətinin, onların işlənmə mövqeyinin dəqiqləşdirilməsini asanlaşdırır;

– Heydər Əliyevin nitqinin komponentini təşkil edən cümlələrdə işlənən əsas, xüsusən də, köməkçi nitq hissələrinin üslubi-qrammatik xüsusiyyətləri və ünsiyyətin formalaşmasında, ekspressiv situasiyanın yaranmasında onların mövqeyinin təhlili nitq mədəniyyəti ilə bağlı problemlərin tədqiqi üçün geniş şərait formalaşdırır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada Heydər Əliyevin nitqinin arxitektonikası orijinal tədqiqat obyekti olaraq Azərbaycan dilçiliyində ilk dəfə kompleks yanaşma üsulu əsasında geniş planda müqayisəli və sistemli şəkildə tədqiqata cəlb edilmişdir. İctimai-siyasi dövr, zaman və məkan nəzərə alınmaqla Ulu Öndərin nitqlərindəki məntiqi ardıcıllıq, çıxışların giriş və sonluq hissələri hərtərəfli tədqiq olunmuşdur. Nitqin ekspressivliyinin artmasına kömək edən nitq elementləri, o cümlədən auditoriyaları səfərbər edən qətiyyət, kütlələrin rəğbətini qazanmağa yönələn səmimiyyət, sabahkı günlərə inam hissi aşılayan nikbinlik, siyasi natiqlik üçün xüsusi önəm daşıyan proqnozlar, nitqin estetik təsir gücünü qüvvətləndirən bədii üslub, mənəviyyatımızın və hissiyyatımızın cilalanmasına gətirib çıxaran fəlsəfi fikirlər sistemli şəkildə ilk dəfə olaraq araşdırılmışdır. Dissertasiyada ilk dəfə olaraq Heydər Əliyevin nitqinin üslubi xüsusiyyətləri tədqiqat obyekti olmuşdur. Eləcə də əsas (say, əvəzlik, feil, zərflik) və köməkçi (qoşma, bağlayıcı, modal söz, ədat) nitq hissələrinin üslubi xüsusiyyətləri, Ulu Öndərin dilində aparıcı yer tutan frazeologizmlər və sinonimlər ciddi şəkildə araşdırılmışdır. İlk dəfə olaraq Heydər Əliyevin dilində sinonim cərgələrin özünəməxsusluğu, frazeologizmlərin çeşidli auditoriyalar üzrə təsnifi işlənmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya dilçiliyimiz üçün çox aktual bir mövzuya həsr olunduğundan yüksək elmi-nəzəri əhəmiyyətə malikdir. Onun müddəa və nəticələri Azərbaycan nitq mədəniyyətinin kompleks öyrənilməsi, eləcə də bu sahə üzrə ixtisaslaşanlar üçün faydalı və etibarlı mənbə sayıla bilər. Tədqiqat işindən dilçi alimlər, filoloqlar, diplomatlar, siyasətçilər, jurnalistlər, tibb işçiləri, bir sözlə, fəaliyyəti nitqlə bağlı olan hər bir mütəxəssis dəyərli bir vəsait kimi yararlana bilər.

Dissertasiyanın praktik əhəmiyyətinə gəldikdə isə qeyd etmək lazımdır ki, onun nəticələrindən nitq mədəniyyətinə aid araşdırmalarda, tədris proqramları, dərslik və dərs vəsaitlərinin hazırlanması işində, dissertant və doktorantlara, bakalavr və magistrlara xüsusi və seçmə fənlər tədris edilərkən istifadə etmək mümkündür.

**Dissertasiyanın aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas müddəaları dərc olunmuş məqalə və monoqrafiyalarda, eləcə də beynəlxalq və respublika əhəmiyyətli konfranslarda söylənmiş məruzələrdə öz əksini tapmışdır. Mövzu ilə bağlı olaraq dördcildlik "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" monoqrafiyası (120 ç.v. həcmində) nəşr olunmuşdur. Ölkə daxilində 34, xaricdə 6 məqalə dərc edilmişdir. Beynəlxalq konfranslarda 14, respublika konfranslarında isə 9 məruzə ilə çıxış edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun Müasir Azərbaycan dili şöbəsində yerinə yetirilmişdir.

**Dissetasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi:** Dissertasiya giriş, dörd fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın giriş hissəsi 6 səhifə, I fəsli 69 səhifə, II fəsli 45 səhifə, III fəsli 32 səhifə, IV fəsli 66 səhifə, nəticə 6 səhifə, istifadə edilmiş ədəbiyyat siyahısı 23 səhifədən ibarətdir. Dissertasiya işi ümumilikdə 259 səhifə, 438 087 işarədən ibarətdir.

# TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **Giriş** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılan müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda və işarə ilə ümumi həcmi haqqında məlumat təqdim edilir.

Dissertasiya işinin birinci fəsli **"Heydər Əliyev nitqinin arxitektonikası və ekspressivliyi"** adlanır ki, burada nitqin giriş və sonluq hissələri, süjet xətti, nitqi müşahidə edən məntiqi ardıcıllıq, nitqin təsir gücünü artıran kənaraçıxmalar, ekspressivliyə xidmət edən nitq elementləri araşdırılmışdır. Bu araşdırmalar nitqin söylənildiyi məkan və zamandan, ictimai-siyasi dövrlərdən, üslublardan, auditoriyanın peşə tərkibindən, cinsindən, bilik səviyyəsindən və s. asılı olaraq aparılmışdır.

Birinci fəslin **"Heydər Əliyevin nitqinin giriş və sonluq hissələri"** adlanan ilk paraqrafında auditoriyaları səfərbər edən giriş və sonluqlar araşdırılmışdır. Ölkənin problemləri ilə bağlı Prezident Sarayında çağrılmış müşavirələrdə Heydər Əliyev qısa girişdən sonra həllini gözləyən məsələləri sadalayır və birbaşa mətləbə keçir. Bu cür müşavirələr *öz nəticələrini verməlidir, nəticə çıxarmalıdır* kimi qətiyyətli ifadələrlə yekunlaşır, tədbir iştirakçıları səfərbər edilir: *"...bugünkü görüşümüz öz nəticələrini verməlidir. Çıxışlardan hər kəs özü üçün nəticə çıxarmalıdır"*[4].

Dövlət bayramlarına həsr olunmuş təntənəli yığıncaqlarda Heydər Əliyev nitqinə yığcam cümlələrlə başlayır, giriş hissələr çox vaxt sinonim cərgələrlə milyonların qəlbinə yol açır. *Əziz həmvətənlər*[5] ifadəsi ölkə vətəndaşlarının dilindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq hamını əhatə edir. Böyük siyasi

---

[4] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.139.

[5] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.548.

natiq bu ifadənin arxasınca *bacılar və qardaşlar*[6] deməklə auditoriyanın ona doğmalığını dilə gətirir. *Xanimlar və cənablar*[7] diplomatik ifadəsinə gəlincə bu dövlət başçısının rəsmi çıxışlarının girişlərində yer alır.

Uşaqlar və gənclərin qatıldığı tədbirlərdə Heydər Əliyevin çıxışları ölkənin gələcəyinə – uşaq və gənclərə ünvanlanır. *Əziz uşaqlar, əziz balalar, əziz övladlarımız* müraciəti ilə başlayan nitqə tez-tez təsadüf edilir. Ordu quruculuğu ilə bağlı çıxışlarda Heydər Əliyev əsgərə olan qayğını önə çəkməklə bütün dövlət strukturlarının diqqətini Azərbaycan əsgərinə yönəldir. Çıxışların əksəriyyətinin girişlərində *əziz əsgərlər, əziz zabitlər*[8]xitabı, sonluqlar isə *Azərbaycan əsgərinə eşq olsun*[9] şüarı ilə bitir.

Dini mərasim və bayramlarda dini məzmunlu natiqliyin tələb etdiyi girişlər də tədqiqatdan kənarda qalmamışdır. Heydər Əliyevin belə nitqləri rəhmli, mərhəmətli Allahın adı ilə başlayır. Böyük natiqin dini mərasimlərdəki nitqlərinin sonluqları *rəhmət eləsin, xalqımıza səbir versin*[10] kimi ifadələrlə, nikbin notlarla, gələcəyə ümid dolu baxışlarla yekunlaşır .

Heydər Əliyev öz bənzərsiz nitqinin giriş hissələrində auditoriyanı təəccübləndirə, düşündürə və heyran qoya bilir. Azərbaycan yazıçılarının X qurultayında olduğu kimi: *"Hörmətli qurultay! Əziz yazıçılar! Hörmətli xanımlar və cənablar!"*[11].

Həmin qurultaydakı çıxışın sonluq hissəsi də yaddaqalandır. Keçid dövrünün ağır şəraitində yazıçıların vəziyyətini yaxşı bilən

---

[6] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.548.

[7] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.254.

[8] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.373.

[9] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.380.

[10] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. – 1997. s.27

[11] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.13. – 2004. – s. 97.

dövlət başçısı *qayğımı göstərəcəyəm* frazeologizmi ilə onları yüksək səviyyəli bədii əsərlər yaratmağa səsləyir.

Birinci fəslin **"Heydər Əliyevin nitqində məntiqi ardıcıllıq"** adlı ikinci paraqrafında mətndaxili və cümlədaxili ardıcıllıqlar araşdırılmışdır. Şifahi nitq prosesində təfəkkürdə ardıcıl nitq formalaşdırmaq natiqlik məharətinin mühüm şərtidir. Heydər Əliyevin nitqindəki məntiqi ardıcıllıq müxtəlif auditoriyalarda özünü göstərir. Müstəqilliklə bağlı aşağıdakı nitq parçasında yer alan *müstəqillik – öz sərvətinin sahibi olmaq – sərbəst müqavilələr imzalamaq* kimi ifadələr bir-biri ilə üzvi surətdə bağlı olaraq ardıcıllıqla düzülür: *"Məhz Azərbaycan dövlət müstəqilliyi əldə edəndən, xalqımız öz sərvətlərinin sahibi olandan, öz sərvətlərindən istədiyi kimi istifadə etmək imkanı əldə edəndən sonra ...dünyanın bir çox ölkələri, şirkətləri ilə müqavilə imzalamağa nail ola bildi. ...Bunlar bir-biri ilə bağlı, bir-birini tamamlayan hadisələrdir"*[12].

Cümlədaxili məntiqi ardıcıllıq müxtəlif auditoriyalarda səslənir: *"...Azərbaycanda demokratik prinsiplərə əməl olunacaq, ölkəmiz sərbəst bazar iqtisadiyyatı yolu ilə gedəcək, ümumdünya bəşəri dəyərlərdən istifadə edərək öz dövlətini quracaqdır"*[13]. Burada dövlət qurmağın şərtləri ciddi məntiqi ardıcıllıqla izah olunmuşdur.

Məntiqi ardıcıllıq böyük natiqin dini leksikalı çıxış və nitqində də müşahidə olunur: *"Kəbəni görmək, müqəddəs Qara daşı öpmək, ona toxunmaq ,onu ziyarət etmək, Kəbənin içərisinə daxil olmaq, orada namaz qılmaq, dua etmək mənə nəsib oldu"*[14].

Araşdırma nəticəsində müəyyən edilmişdir ki, Heydər Əliyev nitqində məntiqi ardıcıllıq möhtəşəm nitq körpüləri ilə həyata keçirilir. Natiq üçün çətin məqamlardan biri də fikirlər arasına salınan rahat nitq körpüləridir ki, yeni fikrə keçərkən auditoriya onu hiss etmir və əksinə, yeni fikri yeni bir hisslə, həvəslə dinləməyə başlayır.

---

[12] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.13. – 2004. – s.185.

[13] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, , – c.1. –1997. – s.397.

[14] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. s.82.

Heydər Əliyevin hər bir nitqi, hər bir çıxışı üçün məntiqə söykənən, sistemliliyə, ümumiləşdirmələrə gətirib çıxaran ardıcıllıqlar xasdır. Şifahi nitqdə belə məntiqi ardıcıllıqları, xüsusilə də saatlarla davam edən çıxışlarda təmin etmək heç də asan məsələ deyil. Elə Heydər Əliyev nitqinin fenomenliyi də polad məntiqə söykənən məntiqi ardıcıllıqlarla müşayiət olunmasındadır.

Dissertasiyanın birinci fəslinin üçüncü paraqrafı **"Heydər Əliyev nitqinin ekspressivliyini artıran nitq elementləri"** adlanır. Bu fəsildə fəlsəfilik, səmimiyyət, qətiyyət, nikbinlik, proqnozlar kimi nitq elementləri çeşidli auditoriyalarda araşdırılmışdır. Üçüncü paraqrafın birinci bəndi **"Heydər Əliyevin nitqində fəlsəfilik"** adlanır ki, bu bənddə dialektik qanunların, kateqoriyaların şifahi nitq prosesində auditoriyalara ünvanlanması araşdırılır. Müdrikliyi sevmək kimi qəbul edilən fəlsəfə tarix boyu görkəmli şəxslərin sözləri ilə zənginləşib, yüksək səviyyəyə çatıb. Heydər Əliyevin nitq və çıxışlarında tez-tez təsadüf edilən *dialektik nöqteyi-nəzərdən yanaşıram* ifadəsi onun dövlət başçısı-filosof kimi xarakterini ortaya qoyur. Dialektik ziddiyyətlər qanunu sadə xalq dilində çeşidli auditoriyaları düşündürür, nitqin cazibə qüvvəsini artırır: *"...bu 25 il hamar yol olmayıbdır, enişli-yoxuşlu, çətin, əzab-əziyyətli keçibdir"*[15]. Yarımfəsildə inkar qanunu *(Mstislav Rostropoviçin atası Leopold Rostropoviç Azərbaycanda yüksək professional musiqi təhsilinin inkişafına böyük töhfə vermişdir)*[16], kəmiyyət dəyişmələrinin keyfiyyətə və əksinə keçməsi qanunu *(Sayca çox olub, az güclü olmaqdansa, az saylı, amma çox güclü olmaq lazımdır)*[17] müxtəlif üslublu nitqdə araşdırılmışdır.

Bir dövlət xadimi kimi Heydər Əliyevin çıxışlarında cəmiyyət fəlsəfəsinin, fəlsəfə və hüququn, fəlsəfə və dinin, eləcə də cəmiyyət fəlsəfəsinin tərkib hissəsi olan demokratiya problemlərinin çözülməsi məsələsinə də araşdırılmada diqqət yetirilmişdir. Məlum olmuşdur

---

[15] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir [46 cilddə] H.Əliyev. – Bakı: Azərnəşr, – c.12. –1997. – s.157.

[16] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir [46 cilddə] H.Əliyev. – Bakı: Azərnəşr, – c.16. – 2005. – s.40.

[17] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir [46 cilddə] H.Əliyev. – Bakı: Azərnəşr, – c.16. – 2005. – s.40.

ki, tam və hissə fəlsəfəsi Ulu Öndərin fəlsəfi düşüncələrində xüsusi yer tutur: *"Əksinə, bu (qaçqınlıq və məcburi köçkünlük – red.) bizim həyatımızın bir hissəsidir və çox çətin, ağır hissəsidir"*[18].

Dialektikanın mühüm kateqoriyalarından sayılan forma və məzmunun dialektik vəhdəti Heydər Əliyevin nitqində tez-tez səslənir. Böyük natiqin istənilən məsələyə, predmet və hadisələrə öz fəlsəfi süzgəcindən baxması, forma ilə kifayətlənməyib məzmunun daxili qatlarına nüfuz etməsi də araşdırma mövzusu olmuşdur: *"Ancaq Füzulinin özünün yaratdığı mənəvi heykəl bizim hər birimizin qəlbindədir. O, əbədi yaşayacaq, gələcək nəsillərin qəlbində yaşayacaqdır"*[19].

Heydər Əliyev nitqinin mühüm bir gücünü əks etdirən səmimi ifadələr **"Heydər Əliyev nitqində səmimiyyət"** adlı üçüncü paraqrafın ikinci bəndində tədqiq edilmişdir. Səmimiyyət digər nitq elementləri və üslublarla birgə tədqiqata cəlb olunmuş, səmimiyyət yaradan bir sıra ifadələr isə ayrıca qruplaşdırılmışdır: *"iqtisadi vəziyyətimiz ağırdır, bunları etiraf etmək lazımdır, mən çox açıq danışan adamam, səhvlər də olacaqdır, nöqsanlar da..., çatışmazlıqlarımız hələ çoxdur, tarixi qaralamaq olmaz, qoy heç kəs deməsin ki, xalqdan heç kəs inciyə bilməz, müxalifətə bundan sonra da böyük hörmətlə münasibət göstərəcəyik və s."*[20].

Heydər Əliyev səmimiyyəti müxtəlif üslublarda üzə çıxır. Bu özünü gah publisistik ruhlu çıxışlarda (*Bilirsiniz, xalqdan heç kəs inciyə bilməz*)[21], gah məişət üslublu nitqlərdə *(...Gəlin bu gün səmimi olaq, gəlin bu gün açıq olaq, heç kəs heç kəsdən çəkinməsin, kimin nə sözü var desin, kimin ürəyində nə var desin...)*[22], gah da dini

---

[18] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir [46 cilddə] H.Əliyev. – Bakı: Azərnəşr, c.16. – 2005. – s.105.

[19] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.8. –1998. – s.25.

[20] Zamanov, N. Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti I c. / N.Zamanov. – Bakı: Elm və təhsil, – 2013. s.230-234

[21] Əliyev, H Müstəqilliyimiz əbədidir / H.Əliyev. – Bakı: Azərnəşr, – c.1. –1997. – s.153

[22] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.1. –1997. – s.76.

söhbətlərdə (*...bu gün Azərbaycanda Heydər Əliyev Prezidentdir, müəyyən vaxtdan sonra başqa bir adam prezident olacaqdır. Heç kəs bu dünyanı tutub axıra qədər qalmayacaqdır)*[23] göstərir.

Heydər Əliyev səmimiyyəti müxtəlif nitq elementləri ilə: fəlsəfiliklə, qətiyyətliliklə, nikbinliklə birgə öyrənilmişdir. Məlum olmuşdur ki, bu səmimiyyət müəyyən izahlara söykənir. O izahlara ki, səmimi ifadələrin arxasında dayanan problemlər çözülür. Auditoriya o izahlardan razı qalır, anlaşılmaz məqamlar aydınlaşır.

Araşdırmalar Heydər Əliyev səmimiyyətini müxtəlif auditoriyalarda üzə çıxarır. İqtisadiyyatla bağlı vəziyyətin ağırlığını söyləyən lider xalqımızın çətin vəziyyətdə yaşadığını dilə gətirərək çıxışını nikbin notlarla sona çatdırır: *"Təəssüflər olsun ki, 1990-cı ildən başlayaraq ...çox şeylər dağılıbdır, itirilibdir. Bu sahədə də işlərin müsbət istiqamətdə getməsi sevindirici haldı"*[24]. Demokratiya və səmimiyyət anlayışları böyük natiqin çıxışlarında vəhdətdədir. Bu səmimiyyət Heydər Əliyevin müxalif partiyalara münasibətində də özünü göstərir. Azərbaycanda müxalif qüvvələrin olmasını təbii bir hal hesab edərək bundan sonra da müxalifətə böyük hörmətlə münasibət göstərəcəyinə söz verən Heydər Əliyev konstruktiv əməkdaşlığa həmişə hazır olduğunu bəyan edir: *"Biz müxalifətə bundan sonra da böyük hörmətlə münasibət göstərəcəyik ...Azərbaycan cəmiyyətində müxalifət mövqeyində olan partiyalar, siyasi qüvvələr konstruktiv əməkdaşlıq mövqeyindən çıxış edəcəklər..."*[25].

Səmimiyyət ciddi beynəlxalq məsələlərin həllində, beynəlxalq təşkilatların fəaliyyəti ilə bağlı məsələlərdə də üzə çıxır. Heydər Əliyevin səmimiyyəti ölkələr arasında qarşılıqlı münasibətlərdə də özünü göstərir: *"...Moldovada da, Azərbaycanda da problemlər var*

---

[23] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.15. –2005. – s.177.

[24] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.14. –2005. – s.70.

[25] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / [46 cilddə] H.Əliyev. – Bakı: Azərnəşr, – c.12. –1997. – s.204

*və biz onları həll etməliyik"*[26]. Auditoriya sadə zəhmət adamları, qaçqın və köçkün, müharibə əlillərindən təşkil olunursa, səmimiyyətin də tonu dəyişir, təsir dərəcəsi artır: *"Həyatım belədir ki, mən həmişə hər bir sözü olduğu kimi açıq demişəm"*[27].

Üçüncü paraqrafın **"Heydər Əliyevin nitqində qətiyyət"** başlıqlı üçüncü bəndində qətiyyətli dövlət başçısı kimi Heydər Əliyevin əzmkarlıqla dolu nitqi araşdırma mövzusu olmuşdur. Bir siyasi lider kimi o, bu qətiyyətli nitqi ilə ölkədə demokratiyanın inkişafına, siyasi plüralizm və insan haqlarının müdafiə prinsiplərinə əməl olunacağına təminat verir.

Dünyanın çeşidli auditoriyalarında müstəqilliyimizlə bağlı böyük natiqin qətiyyətli nitqi araşdırılmışdır: *"...Respublikamızın müstəqilliyi tarixi nailiyyətimizdir, müstəqilliyimiz sarsılmazdır, dönməzdir və biz onu heç vaxt əlimizdən verə bilmərik"*[28].

Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi məsələləri ilə bağlı çıxışlarındakı qətiyyət Heydər Əliyevin dövlət siyasətinin ana xəttini təşkil edir. *Şübhəsiz ki* modal sözü, *səfərbər olacaq, birləşəcək, ayağa qalxacaq* kimi qətiyyət bildirən sinonimlər auditoriyada ölkə rəhbərliyinə möhkəm əminlik və dərin inam hissləri doğurur: *"Şübhəsiz ki, xalqımız birləşəcək, səfərbər olacaq, ayağa qalxacaq..."*[29].

Heydər Əliyevin Prezident sarayında keçirilən müşavirələrdəki çıxışlarında qətiyyət ifadə edən cümlələr bir-birinin arxasınca düzülür. Ulu Öndərin nitqində qətiyyət səmimiyyətlə birgə səslənir: *"Respublikanın sosial-iqtisadi vəziyyətində çətinliklər çoxdur. Xalq, ölkənin rəhbərliyi bunu bilir. Belə çətinliklərdən möhtəkirlik məqsədi ilə istifadə etməyə çalışırlar... xəbərdar edirəm ki, biz belə*

---

[26] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.13. –2004. – s.258.
[27] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.13. –2004. – s.208.
[28] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.8. –1998. – s.335.
[29] Əliyev, H Müstəqilliyimiz əbədidir / H.Əliyev. – Bakı: Azərnəşr, – c.1. –1997. – s. 166.

*hərəkətlərin qarşısını alacağıq və xalq, əhali özü həmin adamların belə hərəkətlərinə yol verməyəcəkdir"*[30].

Heydər Əliyevin qətiyyətli fikirləri ədəbiyyatımızla, incəsənətimizlə, elmimizlə bağlı tədbirlərdə də səslənir. Poetik duyğuların ardınca ictimai-siyasi vəziyyətlə həmahəng səsləşən qətiyyətli ifadələr işə düşür: *"...elmin zibillənməsinin qarşısını almaq istəyirdim. ...Şübhəsiz ki, özləri elmi əsər, yaxud dissertasiya yazmırdılar, kiməsə yazdırır, müdafiə edirdilər"*[31] .

Dini üslubun tələb etdiyi səmimiyyət və nikbinılik anlayışları ilə yanaşı, qətiyyətli nitq dindarlar auditoriyasında da özünü göstərir. İşlədilən qətiyyətli ifadələr dindarlar qarşısında siyasi-dini lider obrazını yaradır, ölkə başçısına olan etimadı gücləndirir: *"Yox! Mən ...Allah evində and içirəm ki, biz bundan sonra heç vaxt müstəqilliyimizi əldən verməyəcəyik".*[32]

Heydər Əliyevin nitqində işlənən qətiyyətli ifadələr adətən *təəssüf* modal sözündən sonra gəlir. Təəssüf hissi keçirən auditoriya qətiyyətli dövlət başçısının təəssüf doğuran halları aradan qaldırmaq gücündə olan nitqinin şahidi olur. Nitqdə cəmiyyətimizdəki təəssüf doğuran neqativ hallar sadalanır. *Təəssüf ki, təəssüflər olsun ki*[33] modal sözlərlə aydınlaşan situasiya *bu işə gündəlik nəzarət olunmalıdır*[34] kimi qətiyyətli ifadələrlə yekunlaşır.

Paraqrafda müəyyən edilmişdir ki, *şübhəsiz ki* modal sözü təkrarlanaraq böyük natiqin dilində qətiyyətlilik tələb olan yerdə böyük təsir gücünə malik olur: *"Şübhəsiz ki, biz bu vəziyyətdən çıxacağıq. Şübhəsiz ki, işğal olunmuş torpaqlarımızın azad edilməsinə nail olacağıq. Şübhəsiz ki, işğal olunmuş*

---

30 Əliyev, H Müstəqilliyimiz əbədidir / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.139.

31 Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.8. –1998. – s.363.

32 Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.4. –1997. – s.198.

33 Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.32.

34 Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.34.

*torpaqlarımızdan Ermənistan silahlı qüvvələrinin çıxarılmasına nail olacağıq"*[35].

**"Heydər Əliyevin nitqində nikbinlik"** adlı birinci fəslin üçüncü paraqrafının dördüncü bəndində çeşidli auditoriya və üslublarda nikbinliyi üzə çıxaran ifadələr seçilmiş, nikbinlik digər nitq elementləri ilə vəhdətdə tədqiq olunmuşdur. Ulu Öndər nikbinliklə dolu çıxışlarında bir filosof kimi xalqını inandırır ki, çətinlikləri həmrəylik yolu ilə aradan qaldırmaq mümkündür: *"Qarşımızda duran çətinlikləri həmrəylik yolu ilə, birlik yolu ilə aradan götürə biləcəyik, vəzifələri yerinə yetirə biləcəyik*[36].

Gələcəyə nikbinliklə baxan Ulu Öndərin çıxışlarında nikbinliklə qətiyyətin sintezinin şahidi oluruq. BMT Baş Məclisinin sessiyasında Heydər Əliyev mürəkkəb cümlələr əsasında qurduğu, elmi üslubda söylədiyi çıxışında *"qətiyyətlə bildirirəm ki, heç kəs Azərbaycan xalqını tutduğu yoldan geri çəkilməyə məcbur edə bilməz"* qətiyyətli fikri *"biz ölkəmizin gələcəyinə nikbinliklə baxırıq"*[37] fikri ilə birgə səslənir və xüsusi bir ahəngdarlıq yaradır.

Müstəqillik dövründə Heydər Əliyevin əlillərlə bağlı tədbirlərdə, əlillərin reabilitasiyası ilə bağlı etdiyi nikbin çıxışları xüsusi yer tutur: *"...Şikəst, əlil olanlar ...cəmiyyətimizin, dövlətimizin xüsusi qayğısı altında olmalıdırlar. Maliyyə məsələlərinin .həll olunması üçün lazımi tədbirlər görülməsini təmin edəcəyəm"*[38].

Heydər Əliyevin nikbinliklə zəngin olan çıxışlarının əsas ünvanlarından biri də uşaqlar və gənclər auditoriyasıdır. Poetik bir ruhla, böyük problemlər içərisində yaşayan, *uşaqlara baxanda hər şeyi unudan* Ulu Öndər onların gələcəyinə nikbinliklə baxır: "*Həyatımın hamısı işə sərf olunubdur. Amma uşaqlara baxanda hər*

---

[35] Əliyev, H Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.6. –1998. – s.38-39.
[36] Əliyev, H Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.8. –1998. – s.224.
[37] Əliyev, H Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.307.
[38] Əliyev, H Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.3. –1997. – s.118.

*şeyi unuduram. Şübhə etmirəm ki, ...siz xalqımızı sevindirəcəksiniz, dövlətimizi sevindirəcəksiniz..."*[39].

Heydər Əliyevin çıxışlarında nikbinlik sinonim cərgələr şəklində özünü göstərir. Azərbaycan xalqına xas olan keyfiyyətlər: *"inam, iradə, güc, qüdrət, daxili mənəviyyat – bunlar bizim xalqa xas olan keyfiyyətlərdir"*[40] sinonim cərgələrlə sıralanır. Xalqa olan inamsa: *"qüdrətinə, cəsarətinə, mətanətinə də inanıram"*[41]- sinonimləri ilə həyata keçirilir. Azərbaycan dilinin zənginliklərindən bütün məqamlarda yerindəcə və yetərincə yararlanan Ulu Öndər sinonimlərdən, xitablardan, təkrirlərdən məharətlə istifadə edir, sonda isə *əmin olduğumu bildirmək istəyirəm ki* nikbinlik ifadəsi ilə auditoriyanı Azərbaycanın işıqlı gələcəyinə səsləyir.

**"Heydər Əliyevin nitqində proqnozlar"** adlı birinci fəslin üçüncü paraqrafının beşinci bəndində böyük natiqin dilində Azərbaycanın gələcəyinə tuşlanmış, həyatda özünü doğruldan, bu gün reallığa çevrilən, auditoriyaları inandırmaq gücündə olan, analitik məntiqə əsaslanan, populizmdən uzaq proqnozlar araşdırma mövzusu olmu°dur. Nitqin təsir gücü söylənilən çıxışlarda irəli sürülən fikir vəmüddəaların müəyyən zamandan sonra həyata keçirilməsindədir. Ulu Öndərin verdiyi proqnozların ölkə və dünya miqyasında özünü doğrultması ona olan inamı artıran mühüm vasitələrdən biri olmuşdur.

Feilin qəti gələcək zamanında səslənən proqnostik fikirlər çeşidli auditoriyalarda öyrənilmə obyekti olmuşdur. Bu gün ölkədə çadır şəhərciklərinin, vaqon evlərin, yataqxanaların yerində müasir şəraitə malik qəsəbələrin, şəhərciklərin salınması, yerindən-yurdundan, elindən-obasından didərgin düşmüş qaçqın soydaşlarımızın həmin qəsəbələrdə və şəhərciklərdə məskunlaşdırılması aşağıdakı nitqdə verilmiş proqnozların özünü doğrultmasına əyani sübutdur: *"İşğal olunmuş torpaqlarımızdan*

---

[39] Əliyev, H Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.1. –1997. – s.166.
[40] Əliyev, H Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.1. –1997. – s.166.
[41] Əliyev, H Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.1. –1997. – s.166.

*didərgin düşmüş qaçqınlarımız, sizə üzümü tuturam. Sizin nə qədər ağır vəziyyətdə yaşadığınızı bilirik. Sizin yaşayışınız üçün əlimizdən gələni edirik və bundan sonra da edəcəyik "*[42].

Heydər Əliyevin çıxışlarında işlətdiyi bir sıra proqnostik ifadələr tədqiqat işində qruplaşdırılmışdır: Böyük imkanlar yaradır... – "*iqtisadiyyatın perspektivləri o qədər böyük imkanlar yaradır ki, ...xalqımızın rifahı da yaxşılaşar"*[43] Mən inanıram ki, vaxt gələcək... – " *Mən inanıram ki, vaxt gələcək Azərbaycan Respublikası yenə də böyük üzümçülük diyarına çevriləcəkdir*"[44]. – Mən bu günü düşünürdüm... *"Mən heç vaxt yalnız bu günü düşünərək yaşayıb işləməmişəm. 70-ci illərdə o illəri görəndə də mən bu günü düşünürdüm"*[45]. – Bu gün də gələcəyi düşünürəm- *"Demək istəyirəm ki, mən o vaxt da bu günü düşünmüşəm. Bu gün də gələcəyi düşünürəm"*[46].

Heydər Əliyevin proqnostik fikirləri müxtəlif auditoriyalarda özünə yer alır. Yazıçılar qurultayında "Heydər Əliyev Fondu" haqqında onun fikirləri də bu qəbildəndir: *"...Sizinlə görüşlərdən sonra mən yəqin ki, bu fondun yaranması haqqında da qərar qəbul edəcəyəm..."*[47].

Böyük natiqin proqnozlarla zəngin çıxışları təkcə siyasi və iqtisadi məsələləri əhatə etmir. Bu həm də uşaq auditoriyasında səslənən öncəgörmələrdə yer almışdır: *"Mən inanıram ki, ...böyük insanlar yetişdirən xalqımız məhz o çadırlarda yaşayan uşaqlardan da qəhrəmanlar yetişdirəcəklər, alimlər yetişdirəcəklər və onlar*

---

[42] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.12.

[43] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.13. –2004. – s.124.

[44] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.134.

[45] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.13. –2004. – s.124.

[46] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.156

[47] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir:[46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.13. – 2004. – s.119.

*gələcəkdə öz xalqına böyük xidmətlər edəcəklər"*[48]. Bu gün qalib ölkənin Qalib Liderinin titanik fəaliyyəti və uğurlu rəhbərliyi sayəsində mühüm quruculuq işləri ilə məşğul olan, Zəfər müharibəsinin qalibi olan gənclər 1994-cü ildə Ulu Öndərin çıxışlarının ünvanlandığı həmin uşaqlar və yeniyetmələrdir.

**"Heydər Əliyevin nitqində üslubların öyrənilməsi"** adlı ikinci fəsildə müəyyən edilmişdir ki, Heydər Əliyevin nitqi təküslubluğa sığmayan bir üslubda fenomen hadisədir. Belə ki, onun çıxışlarında bütün üslublar harmonik şəkildə bir-birini tamamlayır[49]. Ulu Öndərin nitqində üslubların araşdırılması geniş tədqiqatlar aparılmasını tələb edir ki, hələlik bu sahədə geniş tədqiqatlara təsadüf olunmur. İkinci fəslin birinci paraqrafı **"Heydər Əliyevin nitqində rəsmi-işgüzar üslubun öyrənilməsi"** adlanır. Akademik Nizami Cəfərov rəsmi-işgüzar üslubu rəsmi və işgüzar formalara bölür ki, rəsmi üslub dövlər sənədlərinin və ya beynəlxalq sənədlərin dilini əhatə edir[50]. Gündəlik işi əmr, sərəncam, fərman imzalamaq olan Heydər Əliyevin nitqlərində bu üslubun öyrənilməsi maraq doğurur. Ulu Öndərin 18 iyun 2001-ci il tarixində imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman bu üslubun tədqiqi üçün kifayət qədər material verir. Tədqiqat nəticəsində məlum olmuşdur ki, rəsmi-işgüzar üslub üçün feilin əmr şəkli daha çox işlək və məhsuldardır: *Dil komissiyası yaradılsın, Prezidentə təqdim etsin, tapşırılsın, məlumat versinlər, arayış versinlər, təmin etsin, həll etsin.*

Rəsmi-işgüzar üslubun Heydər Əliyev dilində bir sıra xarakterik xüsusiyyətlərini aşkarlamaq olur. Fərmanlar, əsasən, məntiqi ardıcıllıqlar şəklində hazırlanmış olur. Elə yuxarıdakı fərmanı yerinə yetirməli olan dövlət qurumları yuxarıdan aşağıya doğru sıralanır: Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı → Azərbaycan Respublikası Təhsil Nazirliyi → Azərbaycan Milli Elmlər

[48] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.13. –2004. – s.394.
[49] Miriyev A.F. Ümummilli liderin nitqləri üslubi tədqiqatın obyekti kimi // – Bakı: Filologiya məsələləri, – 2015. №5, – s.442-447
[50] Cəfərov, N.Q. Azərbaycan nitq mədəniyyəti / N.Q. Cəfərov, S.M.Mərdanova, A.N. Qəribli – Bakı: Şərq-Qərb, – 2018. – 304 səh.

Akademiyası → şəhər və rayon icra hakimiyyəti başçıları → Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi → Dövlət Televiziya və Radio Verilişləri Şirkəti. Yuxarıdakı fərmanın birinci bəndi Komissiya yaradılmasından, onun ardınca bu Komissiyanın əsasnamə hazırlamasından xəbər verir.

Heydər Əliyevin imzaladığı bu qəbildən olan rəsmi sənədlərdə belə böyük natiqin izahedici, qətiyyətli nitqi özünü biruzə verir.

İkinci fəslin **"Heydər Əliyevin nitqində elmi üslubun öyrənilməsi"** adlı ikinci paraqrafında auditoriyalarda səslənən, elmi terminlərlə zəngin, məntiqi təfəkkürə söykənən, ümumiləşdirmələrə və nəticələrə gətirib çıxaran elmi üslubun xüsusiyyətləri öyrənilmişdir. Heydər Əliyevin beynəlxalq konfranslardakı, sessiyalardakı çıxışları əsasında elmi üslubun xüsusiyyətləri tədqiq olunmuş, bu üslubun digər üslublarla əlaqəsinə xüsusi diqqət yetirilmişdir. Elmi üslub terminlərə geniş yer verilməsini tələb edir [51, 52] ki, bu Heydər Əliyevin elmi üslublu hər bir çıxışında özünü göstərmişdir. BMT Baş Məclisinin 49-cu sessiyasındakı sırf elmi-siyasi üslubda olan çıxışda aşağıdakı terminlərə daha çox təsadüf edilmişdir: *"milli müstəqillik", "söz, mətbuat, vicdan azadlıqları", "iqtisadi islahatlar", "millətçilik və separatçılıq", "təhlükəsizlik şurası", "xalqların öz müqəddaratını təyin etməsi", "qaçqınlar", "etnik münaqişələr", "qaçqın və köçkünlər", "beynəlxalq iqtisadi əməkdaşlıq", "beynəlxalq hüquq normaları"* [53] və s.

Emosionallıq, obrazlılıq elmi üslub üçün xarakterik olmasa da, Heydər Əliyevin nitqi sessiyadakı çıxışında da, necə deyərlər, qəlibə-təsnifata sığmır. Ancaq bu cür *kənaraçıxmalar* Heydər Əliyevin akademik, elmi nitqinə xüsusi çalarlar verir: *"Sizin bir çoxunuza "müharibə", "silahlı münaqişə" məfhumları xoşbəxtlikdən, tarixi və ya evinizdən uzaqda baş verən hadisələri xatırladırsa, mənim xalqım*

---

[51] Abdullayev, N. Məmmədov Z. Nitq mədəniyyətinin əsasları / N. Abdullayev, Z. Məmmədov, – Bakı: – 2005. – 241 s.

[52] Sadıqova S. Azərbaycan dilinin terminologiyası / S.A. Sadıqova. – Bakı: Elm, - 2011.- s.21

[53] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.306-308.

*üçün bu, amansız reallıq, qanlı-qadalı adi günlərdir"*[54]. Başqa bir çıxış məqamında (Aqrar islahat: Problemlər və onların həlli yolları mövzusunda beynəlxalq konfrans. 9 dekabr 1994-cü il) terminlər aşağıdakı tezlikdə işlənmişdir: islahat – 17, kənd təsərrüfatı – 17, iqtisadiyyat – 15, aqrar sahə - 15, istehsal – 12, kollektivləşmə – 7, aqrar sektor – 3 və s. Təkcə bu konfransdakı çıxış Heydər Əliyevi kənd təsərrüfatı sahəsinin aparıcı mütəxəssisi kimi təqdim edir.

Elmi üslub Heydər Əliyevin dini xarakterli çıxışlarında da özünü bariz şəkildə göstərir. 10 fevral 1994-cü il tarixində İstanbulda "Sülh və səbir" beynəlxalq dini konfrans nümayəndələri qarşısındakı çıxışı Heydər Əliyevin dini məsələləri elmi üslubda araşdırması xüsusi maraq doğurur. Elmi üslub üçün xarakterik olan terminlərdən istifadə burada da özünü göstərir: *"vicdana çağırış, sülh və barış, dini xarakter, dini mənsubiyyət, etnik münaqişələr və s."*[55].

Elmi üslub nitqdə dəqiqləşdirmələr tələb edir ki, bu baxımdan dəqiqləşdirici ədatlar böyük natiqin dilində həm qüvvətləndirici, həm də dəqiqləşdirici funksiyasını yerinə yetirir. Eləcə də bu üslubun tələb etdiyi geniş, tabeli və tabesiz mürəkkəb cümlələr Heydər Əliyevin nitqində özünü bariz şəkildə göstərmişdir. Lakin bu cümlələr sadəcə elmi üslubun tələb etdiyi kimi irihəcmli cümlələr yox, sinonimlər və təkrarlarla, frazeologizmlər və ədatlarla qüvvətlənən cümlələrdir: *"Azərbaycan yeni, gənc müstəqil dövlətdir, müstəqil inkişaf yoluna qədəm qoymuş ölkədir, dünya birliyində öz layiqli yerini tutan, hamı tərəfindən qəbul olunmuş dünya standartları əsasında dünya iqtisadiyyatına sıx bir şəkildə qoşulmağa çalışan ölkədir"*[56].

Elmi üslub səbəb və nəticə əlaqələrinin müəyyənləşdirilməsi, ümumiləşdirilmələr aparılması və son olaraq müəyyən nəticələr əldə

---

[54] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.309.

[55] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.1. –1997. – s.386-394.

[56] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.5. –1998. – s.21-22.

edilməsi üçün də əhəmiyyətlidır[57,58]. Eləcə də müəyyən edilmişdir ki, akademik nitq üçün mühüm hesab olunan rəqəmlərin dili ilə elmi şəkildə auditoriyaları inandırmaq Heydər Əliyevin çıxışlarında mühüm yer tutur: *"...20 mindən çox adam həlak omuşdur, 100 minə yaxın adam yaralanmış və xəsarət almışdır, 6 min adam əsir düşmüşdür, 1 milyondan çox azərbaycanlı – ölkə əhalisinin təxminən 15%-i qaçqın vəziyyətinə düşmüşdür və çadır şəhərciklərində yaşayır"*[59].

Aparılan təhlillər göstərir ki, dilçi alimlərin elmi üslub barədə söylədiyi fikirlər: *"Dinləyicilər və ya oxucular mahiyyətə maraq göstərdiklərinə görə nitqdə əlavə cəlbedici vasitələrdən, bədii ifadələrdən, kəskin jestlərdən, mimikalardan istifadə etməyə ehtiyac qalmır"*[60], necə deyərlər, Heydər Əliyevin nitqindəki elmi üslubun çərçivəsinə sığmır. Reallıqda isə bu sirr deyil ki, "*mahiyyətə maraq*" heç də *"nitqdə cəlbedici vasitələrdən"* istifadəni inkar etmir. Əksinə, monotonluqdan, yeknəsəqlikdən yorulmaq təhlükəsini gözəl anlayan Ulu Öndər "*ehtiyac*" olmayan vasitələrdən yetərincə yararlanır.

İkinci fəslin **"Heydər Əliyevin nitqində publisistik üslubun öyrənilməsi**" adlanan üçüncü paraqrafında Ulu Öndərin ictimai-siyasi məsələlərə həsr olunmuş nitqi tədqiqata cəlb edilmişdir. Heydər Əliyevin publisistik üslublu çıxışlarında siyasi, sosial, iqtisadi məsələlər, həyatda baş verən müxtəlif hadisələr, faktlar sadə şəkildə öz ifadəsini tapmışdır.

Bu publisistik üslublu nitq aşağıdakı tələblərə cavab verir: *"Publisistik üsluba uyğun olaraq əvvəlcə informasiyalar*

---

57 Abdullayev N. Məmmədov Z. Nitq mədəniyyətinin əsasları / N. Abdullayev, Z. Məmmədov, – Bakı: – 2005. – 241 s.

58 Введенская Л.А. Культура речи государсвенного служащего: учебно-практическое пособие / Л. А. Введенская. – Ростов н/Д: Феникс, – 2011. – 473 с.

59 Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.309.

60 Abdullayev N. Məmmədov Z. Nitq mədəniyyətinin əsasları / N. Abdullayev, Z. Məmmədov, – Bakı: – 2005. – 241 s.

*verilir, ikinci mərhələdə isə dinləyicilərə güclü təsir göstərilir"*[61]. Məlumatları dinləyicilərə çatdırarkən Heydər Əliyev nitqinə xas olan məntiqi ardıcıllıq xüsusi yer tutur.

Heydər Əliyevin publisistik üslublu nitqində müəyyən edilmişdir ki, standart sözlərlə yanaşı, ekspressivliyi gücləndirən, mənalı, emosional nitq vasitələri də özünü göstərir: *"Bəzən də ümumi işin qiyməti görülən tədbirlərlə ölçülürdü: neçə dəfə müzakirə olundu, neçə dəfə qərar qəbul edildi, neçə dəfə müşavirə keçirildi, neçə dəfə fəallar yığıncağı çağırıldı"*[62]. Göründüyü kimi, bu nitq parçasında ritorik fiqur kimi dörd yerdə təkrarlardan istifadə olunmuşdur.

Araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, Heydər Əliyevin publisistik üslublu çıxışlarında modal sözlər xüsusi bir çəkiyə malikdir. Modal sözlər içərisində ən şox *təəssüf, şübhəsiz ki, təsəvvür edin, həqiqətən* leksik vahidləri işlənmişdir. Eləcə də, publisistik üslub epiforaların da zənginliyi ilə seçilmişdir: *"Bunu Azərbaycan xalqı heç vaxt unutmayıb və unutmayacaqdır. ...Türk xalqının ona göstərdiyi köməyi və yardımı heç vaxt unutmayıb və unutmayacaqdır"*[63].

Publisistik üslubda nitqin ekspressivliyini gücləndirmək üçün sinonimlərdən, frazeologizmlərdən də yeri gəldikcə istifadə olunur ki, bu üslubda da Heydər Əliyevin nitqi özünəməxsus sinonim cərgələrin zənginliyi ilə seçilir. Heydər Əliyevin nitqində yer alan sinonimlərdə kitab leksikası ilə sadə, loru dilin leksikası yanaşı işlədilir ki, bu da auditoriyanın nitqi tam qavraması üçün vacib şərtlərdən sayılır: *"Bizim yolumuz sülh yolu, barışıq yoludur"*[64].

---

[61] Введенская Л.А. Культура речи государсвенного служащего: учебно-практическое пособие / Л. А. Введенская. – Ростов н/Д: Феникс, – 2011. – 473 с.

[62] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.117.

[63] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.1. –1997. – s.367.

[64] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.1. –1997. – s.371.

Heydər Əliyevin publisistik üslublu nitqində müxtəlif dil vasitələrindən, xüsusilə sual cümlələrindən də nitqin məna gücünü artırmaq üçün istifadə olunmuşdur: *"Çox düşündük, nəhayət, mən o binanın Akademiyanın Əlyazmalar Fonduna verilməsi haqqında qərar qəbul etdim. Nə üçün? Çünki Əlyazmalar Fondu, əsrlərdən bəri qalmış o kitablar bizim üçün böyük bir sərvətdir"*[65].

İkinci fəslin **"Heydər Əliyevin nitqində bədii üslubun öyrənilməsi"** adlı dördüncü paraqrafında çıxışlarda səslənən poetik mətnlər tədqiqata cəlb olunmuş, bu mətn və ifadələr nitq mədəniyyəti nöqteyi-nəzərindən araşdırılmışdır. Heydər Əliyevin çıxışlarında poetik duyğuların işlənməsi heç də təsadüfi deyil. Böyük natiqin öz sözləri ilə desək: *"Çünki bizim xalqımız, birincisi, öz istedadına görə şair, yazıçı, söz ustası olubdur. İkincisi, bizim xalqımız çoxəsrlik tarixində böyük şairlər, yazıçılar, mütəfəkkirlər yetişdiribdir"*[66].

Heydər Əliyevin nitqində poetik duyğuların zənginliyi bütün dünyanın qəbul etdiyi bir həqiqəti ortaya qoyur: Azərbaycan dili axıcılığı, ahəngdarlığı ilə seçilən poeziya dilidir. Bu poetik duyğular müxtəlif nitq situasiyalarında, nitq məqamlarında təküslubluğa sığmayan Heydər Əliyev üslubunda özünə yer alır.

Heydər Əliyevin nitqində ən çox təsadüf edilən poetik çalarlı ifadələrə diqqət yetirilmişdir: *"Gecəm də budur, gündüzüm də"*[67], *"Mən bu əziyyəti çəkmək üçün doğulmuşam"*[68], *"Bu da mənim taleyimdir"*[69], *"...çünki mahnı, musiqi qədər, incəsənət, mədəniyyət qədər insanları bir-birinə heç nə bağlamır"*[70], *"Hər şey heç vaxt tam*

---

[65] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.1. –1997. – s.155.

[66] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.13. –2004. – s.97.

[67]Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.10. –2002. – s.160.

[68] Əliyev, H Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.10. –2002. – s.160

[69] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.10. –2002. – s.161.

[70] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.10. –2002. – s.49.

*gül-çiçək içində olmayıbdı*[71], *"Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır"*[72] və s.

Böyük natiqin qətiyyətli çıxışları auditoriyaları öz poetik məzmunu ilə heyran edir, poetizmlə dolu çıxışlar yaddaqalanlığı ilə səciyyələnir. Müstəqilliyin ağır illərində, ölüm-dirim çarpışmalarında poetikcəsinə danışmaq, nitq söyləmək, auditoriyaları fəth etmək Heydər Əliyevin böyük nitq ustalığı ilə həyata keçirilir: *"Kim Azərbaycanın müstəqil dövlət olmağını istəyirsə, kim Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunmasını istəyirsə, kim Azərbaycanın ərazi bütövlüyünü istəyirsə, o, bu bayraq altında, bu amal ətrafında birləşməlidir".* Göründüyü kimi Ulu Öndər fikrin daha da təsirli alınması, emosionallığın daha da gücləndirilməsi üçün təkririn bir növü olan anaforalardan geniş istifadə edir.

Poetik çalarlı nitqlərlə Heydər Əliyev millilik, azərbaycançılıq ideyalarını soydaşlarımıza aşılayır, onları gələcək günlərə səfərbər edir. Araşdırmalar göstərir ki, Heydər Əliyev nitqində tariximizin ağır illəri də auditoriyaya poetik bir dillə çatdırılır.

Bədii üslubun ritorik fiqurlarla müşayiət olunması Heydər Əliyevin nitqlərində ritorik sualların, təkrarların araşdırılmasını da zəruri etmişdir: *"Polemikada istifadə olunan sintaktik vasitələrdən biri də ritorik suallardır ki, bu nitqdə həm emosionallıq yaradır, həm də ona kəskin tənqidi ton verir, intonasiyanın yüksəlməsinə zəmin hazırlayır"*[73].

Ritorik suallar nitqin dinləyicilərə təsir gücünü artırır, hissiyyatları oyadır, böyük məna və emosional yük daşıyır. Tədqiqat nəticəsində məlum olmuşdur ki, bir sıra hallarda ritorik suallar Heydər Əliyevin ciddi elmi dəlillərlə zəngin olan nitqinin başlanğıcında özünə yer tutur, auditoriya həmin sualların cavabını səbirsizliklə, böyük bir maraqla eşitmək istəyir. Adətən, belə

---

[71] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.13. –2004. – s.84.

[72] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.7. –1998. – s.288.

[73]Axundov, A. Heydər Əliyev dil haqqında və Heydər Əliyevin dili / A. Axundov, M.Məmmədov, M.Mahmudov. – Bakı: Elm, – 1998. – 196 s.

cavablar modal sözlərlə, təkrarlarla, qüvvətləndirici ədatlarla müşayiət olunur ki, bu da nitqin ekspressivliyini, məna tutumunu daha da gücləndirir: *"- Necə oldu ki, azərbaycanlılar Qazaxıstanda da, Özbəkistanda da, Qırğızıstanda da, Türkmənistanda da yaşayırlar? Onların böyük əksəriyyəti hələ o dövrdə repressiyalar nəticəsində və xüsusən kənd təsərrüfatının kollektivləşdirilməsi ilə əlaqədar yerlərindən kütləvi surətdə sürgün edilmiş adamlardır. ...Bu kollektivləşdirmə proqramı bax, belə böyük itkilərlə, böyük məhrumiyyətlərlə, cəmiyyətə, xalqımıza, millətimizə vurulan ağır zərbələrlə həyata keçirildi və kolxoz-sovxoz sistemi yaradıldı"*[74].

Heydər Əliyevin nitqində ritorik suallar əksər hallarda sual ədatları ilə formalaşsa da, bir sıra hallarda sual intonasiyası ilə yaradılır. Onun nitqində sual cümlələrinin köməyilə açıq, səmimi bir polemika yaranır: *"Yenə də deyirəm, hər bir partiya, hər bir təşkilat fəaliyyət göstərir və fəaliyyət göstərə bilər. Ancaq gəlin açıq danışaq. Bu partiyaların-filanların məqsədi nədir? Azərbaycanın müstəqil dövlət olması? Azərbaycan müstəqil dövlətdir"*[75].

Bir qisim hallarda isə öncə situasiya auditoriya üçün açıqlanır, sonra bu situasiyanın yaddaşlarda möhkəmlənməsi və aydınlaşdırılması üçün ardıcıl olaraq ritorik suallar verilir: *"İnsanlar çöllərə tökülüb. ... İlan vurur onları. Bəs onlar insan deyildirlərmi? Onlara sosial-iqtisadi təminat lazım deyilmi? Belə çıxır ki, onlar da respublika yaratmalıdırlarmı? Onlar da silahlı dəstələr qurub cürbəcür cinayət etməlidirlərmi?*[76]*"*.

Ritorik suallar müxtəlif auditoriyalarda Heydər Əliyev tərəfindən mahiyyətin dərki üçün istifadə olunur. Kadrların işə cəlbi, onların mənəvi keyfiyyəti, iş qabiliyyətlərinin qiymətləndirilməsi ilə bağlı müşavirələrdə ritorik suallara cavab verilməsə belə auditoriya cavabı elə ritorik sualın özü ilə də alır: *"...Əgər o adam yararlıdırsa, siz nə üçün onu mənə təqdim etmirsiniz? Əgər yararlı deyilsə, niyə*

---

[74] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.7. –1998. – s.87.
[75] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.565
[76] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. . – Bakı: Azərnəşr, – c.1. –1997. – s.78.

*onu mənə təqdim etmirsiniz? Nə üçün özbaşına bu işləri görürsünüz? Ona görə də mənim haqqım var, əsasım var deyəm ki, siz bu sahəni tamamilə nəzarətdən buraxmısınız”*[77] .

İkinci fəslin **“Heydər Əliyevin nitqində məişət üslubunun öyrənilməsi”** adlı beşinci paraqrafında Ulu Öndərin məişət xarakterli nitqi araşdırma obyekti olmuşdur. Məişət üslublu nitqdə Heydər Əliyev problemləri çözə, problemin dərinliyi ilə auditoriyaları tanış edə bilir. Auditoriya sadə, anlaşıqlı cümlələrlə problemin nədən ibarət olduğunu Ulu Öndərin öz dilindən eşidir.

Heydər Əliyevin məişət üslublu nitqləri satirik çalarlarla da zəngindir. Polad məntiqə söykənən yumoristik, satirik çalarlar auditoriyanı güldürməkdən çox düşündürməyə xidmət edir. Belə nitq uzun illər yaddaqalan Sabirsayağı, Cəlilsayağı nitqə çevrilir: *“... bir milyondan artıq qaçqını saxlamalıyıq. Bunu hamımız bilməliyik. İqtisadçı nəyi isə əsas tutaraq hesabladığı 37 min manatlıq “istehlak səbətindən” söz saldı. O, buraya 500 adda şey daxil etmişdir. Bu ki, lap padşah yaşayışı olur! Yaxud sən deyirsən ki, hər adam ildə bir dənə yorğan almalıdır. Mənim özüm 30 il bundan əvvəlki yorğanda yatıram”*[78]. Heydər Əliyevin məişət üslublu nitq və çıxışları sonda elmi-publisistik səciyyə daşıyır: *“Bu, təsadüfi deyil. 500 il bundan öncə Füzuli doğulub, 70 il bundan öncə də hörmətli Süleyman Dəmirəl doğulmuşdur. Bu onu göstərir ki, Füzuli dünyası, Füzuli nəsli davam edir, dünya birliyinə, dünya mədəniyyətinə insanlar bəxş edir”*[79].

Dəfn mərasimlərində söylənilən çıxışlarda haqqında söhbət gedən adamların şəxsiyyəti, cəmiyyətdə tutduğu mövqeyi, xalq qarşısındakı xidmətləri önə çəkilir. Məsələn, Tamerlan Əliyev haqqında çıxışın başlanğıcında sadə, yığcam, səmimi cümlələr yer

---

[77] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir : [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.7. –1998. – s.135.

[78]Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.247.

[79] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.442.

tutur: *"Əlli il müddətində mən Tamerlanı yaxşı tanımışam, onun həyatını, fəaliyyətini həmişə müşahidə etmişəm"*[80].

Məişət üslublu nitqdə Heydər Əliyevə məxsus *xatirimdədir* ifadəsi ilə xatirələr söylənir: *"Mənim xatirimdədir, gənc vaxtlarında da müəyyən bir gün işə gecikmiş olsun, yaxud üzərinə düşən vəzifəni yerinə yetirməmiş olsun və ya işində bir səhlənkarlığa yol vermiş olsun - belə şeylər mümkün deyildi"*[81].

Məişət üslubuna aid edilə biləcək matəm, mərasimlərində Heydər Əliyevin yarımməişət, yarıpublisistik nitqi özünü göstərir: *"Xəlil Rza bir vətəndaş, bir insan kimi bütün xüsusiyyətləri ilə həmişə sevilmişdir. Mən daim onun yaradıcılığına, insanlığına, vətəndaşlığına, ən çox da cəsurluğuna, əyilməzliyinə, öz ideyalarından dönməzliyinə hörmət etmişəm, onu yüksək qiymətləndirmişəm"*[82].

Heydər Əliyevin nitqində səslənən məişət üslublu sadə cümlələr böyük məntiqdən xəbər verir. Məntiqi təfəkkürə söykənən məişət üslublu nitqlər auditoriya tərəfindən ciddi qəbul olunur.

Din ocaqlarında, dindarlar qarşısında nitq və çıxışlara imkan verilmədiyi Sovetlər İttifaqı dövründə dini üslubdan danışmaq, təsnifatlarda dini üslubu ayırmaq mümkünsüz idi: *"Dini natiqlikdən dini mərasimlərdə, din ocaqlarında, beynəlxalq dini konfranslarda istifadə olunur ki, Heydər Əliyevin nitqində dini natiqliyin də özünəməxsus yeri var"*[83].

Terminlərlə zəngin elmi üslub böyük natiqin dini mərasimlərdəki çıxışlarında da müşahidə olunur. Din ocaqlarında elmi üslubun çalarları məişət üslubu ilə birgə işlənir. Heydər Əliyev dilində dini-elmi terminlər sırasına *Allah-təala, Həzrəti- peyğəmbər,*

---

[80] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.9. –2000. – s.144.

[81] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.9. –2000. – s.145.

[82] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.44.

[83] Zamanov N.T. Heydər Əliyevin nitqində dini üslubun yeri // – Bakı: Filologiya məsələləri, – 2014. №5, s.102-108

*şəhidlər, səbir, təmkin, Kərbəla şəhidləri, Orucluq bayramı, Qurban bayramı, Aşura günü*[84] və s.-ni aid etmək olar.

İslam dininin təbliğində Ulu Öndərin sadə, aydın dillə söylədiyi nitqlər əvəzsizdir. Ziyarətgahlarda islami dəyərlərlə bağlı fikirlərini geniş kütlələr qarşısında bəyan edərək, Azərbaycanın qapılarını öz dini missiyalarını, öz fitnəkar missiyalarını yaymaq istəyən dini-missioner təşkilatların üzünə birdəfəlik bağlayır.

Şəhidlər, qaçqın və məcburi köçkünlər qarşısında dini leksikaya söykənən çıxışlar böyük natiqin məişət üslublu nitq və çıxışlarının ana xəttini təşkil edir. *Allah səbirliləri sevir* kəlamı Müqəddəs kitabımız Quranın kəlamları içərisində xüsusi yer tutur ki, Ulu Öndər də ölkə vətəndaşlarını səbirlilər cərgəsində olmağa səsləyir: *"Allah Azərbaycan xalqına səbir versin, Allah sizə, valideyinlərə, şəhidlərin ailələrinə, qohum-əqrabasına səbir versin"*[85]

Dissertasiyanın üçüncü fəslinin birinci paraqrafı **"Heydər Əliyevin nitqində frazeologizmlərin işlənməsi"** adlanır ki, bu paraqrafda Heydər Əliyevin nitqində frazeologizmlərin yeri, eləcə də frazeologizmlərin digər nitq elementləri ilə əlaqələri tədqiq edimişdir. Heydər Əliyevin nitqindəki frazeologizmlər üslublardan və müxtəlif məsələlərin həllini tapdığı auditoriyaların çeşidindən asılı olaraq nəzərdən keçirilmişdir. Bu fəsildə Ulu Öndərin nitqində siyasi səhnədə dilimizin zənginləşməsinə kömək edən frazeologizmlər araşdırılmışdır. Heydər Əliyev qətiyyəti özünü bir sıra frazeologizmlərin, xüsusilə də nitqlə bağlı frazeologizmlərin səslənməsində göstərir: *"...xalqa söz vermişəm, mən öz sözümün üstündə durmuşam və axıra qədər duracağam, son damla qanımadək, son nəfəsimədək sözümdən dönməyəcəyəm. Heç kəs də iradəmi qıra bilməyəcək"*[86]. Bir böyük cümlədə *söz vermək, sözün*

---

[84] Zamanov N. Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti I c. / N.Zamanov. – Bakı: Elm və təhsil, – 2013. s. 447

[85] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.3. –1997. – s.137-138.

[86] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.109.

*üstündə durmaq, sözdən dönməmək, iradəni qırmaq* frazeologizmləri növbəti cümlədə işlənən *heç kəs* inkar əvəzliyi ilə birgə prinsipial bir nitq nümunəsi yaradılır.

Tədqiqatda frazeologizmlərin öyrənilməsi, onların nitqdə, xüsusən də Heydər Əliyevin nitqində işlənməsinə ayrıca olaraq diqqət yetirilmişdir [87,88,89]. Dissertasiyada frazeologizmlərin çeşidli auditoriyalarda işlənməsi aşağıdakı ardıcıllıqla verilmişdir: Heydər Əliyevin nitqlərinin giriş hissələrində işlənən, dövlətçiliyimizlə bağlı, lider və xalq vəhdətini əks etdirən, qaçqın və məcburi köçkün auditoriyalarında səslənən, xalq ruhuna söykənən, dövlətlərarası münasibətlərdə səslənən, Azərbaycan dili ilə bağlı, iqtisadi məsələlərin çözülməsi ilə bağlı, kənd təsərrüfatı ilə əlaqədar keçirilən müşavirələrdə səslənən, sahibkarlıqla bağlı, xaricdə yaşayan soydaşlarımızla olan görüşlərdə yer alan frazeologizmlər və s.[90]

Bir sıra frazeologizmlər Heydər Əliyev nitqinə daha çox xasdır: *Daxili siyasi iqlimə təsir göstərmək, hakim dil etmək*[91]*, hamar yola çıxmaq*[92]*, iki stul üzərində oturmaq* və s. Xalqın gələcəyi, mövcudluğu baxımından meydanlara atılan və bu zaman məsuliyyətini dilə gətirən Heydər Əliyevin nitqində tez-tez *öz üzərimə götürmək*[93] frazeologizmi işlənir. Vəziyyətdən çıxış mənasında işlədilən frazeologizmlər içərisində *yollar aramaq* ifadəsi çox işlədilir: *"...bu günlər meydana çıxan məsələlərin həll edilməsi*

---

87 Гамидов, И. Философия грамматики паремио-фразеологических единиц / И. Гамидов. – Баку: Мутарджим, – *2017.* – 368 с.

88 Zamanov, N.T. Heydər Əliyevin nitqində frazeoloji birləşmələr // – Bakı: Filologiya məsələləri, – 2014. № 4, – s. 16-21.

89 Seyidəliyev, N. Azərbaycan dastan və nağıl dilinin frazeologiyası: filologiya üzrə elmlər doktoru dis. / – Bakı, 2007. – s.

90 Zamanov, N.T Heydər Əliyevin nitqində frazeoloji birləşmələr // – Bakı: Filologiya məsələləri, – 2014. №4, – s.16-21.

91 Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.13. –2004. – s.136.

92 Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.8. –1998. – s.429.

93 Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.7. –1998. – s.111.

*yollarını aramalıdır"*[94]. Frazeologizmlər cəbhədə düşmənlə üz-üzə dayanan Azərbaycan əsgərinə yönəlir: *"...öz sinəsini, qeyrətini, cəsarətini düşmənlərimizə qarşı sipər etmişlər"*[95]. Bu parçada işlənən *sipər etmək* frazeoloji birləşməsi *sinəsini, qeyrətini, cəsarətini* sinonim cərgəsinin hər bir elementinə aid olur ki, bu tip cümlələr böyük natiqin nitqində tez-tez rast gəlir. *Yük götürmək, zəhmət çəkmək, əziyyət çəkmək, üzərinə düşmək*[96] kimi frazeologizmlərlə Heydər Əliyev Azərbaycan qadınlarını, xüsusilə də qaçqın və məcburi köçkün düşən qadınları xalqa, auditoriyalara tanıdır, Azərbaycan qadınına dövlət qayğısını önə çəkir.

**"Heydər Əliyevin nitqində sinonimlərin işlənməsi"** üçüncü fəslin ikinci paraqrafında tədqiq edilmişdir. Heydər Əliyevin çıxışlarında özünəməxsus sinonimlər işlənmişdir ki, bu, Azərbaycan dilinin sinonimlər yaratmaq imkanının genişliyinə bir sübutdur: *"Fitri, parlaq istedadı, çox nadir xüsusiyyətə malik olan istedadı, eyni zamanda ən gənc yaşlarından yazıb-yaratmaq əzmi Səməd Vurğunu qısa bir zamanda xalqımızın sevimli şairinə çevirmiş və o, ... tanınmış, sayılan bir insan olmuşdur"*[97].

Heydər Əliyev nitqində işlənən sinonimlərin bir özünəməxsusluğu da ondan ibarətdir ki, sinonimin tərəfləri izah səciyyəsi daşıyır. Məsələn, böyük natiq *özünəməxsus xüsusiyyət*[98] deyirsə, sonrakı sinonim *öz mentaliteti* kimi səslənir. Nitqin gedişində böyük natiq gah ümumişlək, gah da yüksək kitab leksikasında olan sözləri sinonimləşdirir, dinləyicilər üçün əlavə izaha, şərhə ehtiyac qalmır. Heydər Əliyev nitqində sinonimlərin özünəməxsus bir xüsusiyyəti sinonim cərgələrdə beynəlxalq mənşəli

---

[94] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.9. –2000. – s.174.
[95] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.1. –1997. – s.482.
[96] Zamanov N. Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti IV c. / N.Zamanov. – Bakı: Elm və təhsil, – 2020. – s. 349-502.
[97] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.9. –2000. – s.17.
[98] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.31. –2010. – s.131.

sözü sinonim kimi işlətməsidir: *"...o vaxtkı kommunist rəhbərliyinin Azərbaycan xalqına qarşı ədalətsizliyinə öz protestini, etirazını bildirirdi"*[99].

Heydər Əliyev nitqindəki sinonim cərgələrin ayrı-ayrı tərkib hissələri mütləq sinonim olmasa da, çıxışlarda auditoriya bunları bir-birindən ayrılmayan, biri digərini gücləndirən və nitqin auditoriyaya olan təsir gücünü artıran sinonimlər kimi qəbul edir. Məsələn *hərəkət*, *meyil*, *cəhd* sözləri ayrılıqda sinonim kimi qəbul edilə bilməz. Lakin cümlədə işlənmə yerinə diqqət yetirsək, görərik ki, bu sözlərdən çox gözəl cazibədar bir sinonim cərgə alınır. Elə bu faktlar özlüyündə böyük natiqin Azərbaycan dilinin dərin qatlarına bələd olmasından xəbər verir: *"...ərazisinin bir qismini Gürcüstandan ayırmaq istəyirlər. Biz bu cür hərəkətləri, meylləri, cəhdləri daim pisləmişik və pisləyirik"*[100].

Heydər Əliyev nitqində sinonimlərin bir özünəməxsusluğu da bu sinonimlərin əsasən frazeologizmlərdən ibarət olmasındadır: *"...xalqımızın etimadını doğrultdunuz ...arzularımızı çin etdiniz"*[101]. Nitqin ekspressivliyini gücləndirən sinonim cərgənin təşkil olunduğu sözləri ədatlarla qüvvətləndirmək hallarına Heydər Əliyev nitqində çox təsadüf edilir: *"...nə qədər ağır olsa da, nə qədər təhlükəli olsa da..."*[102].

Heydər Əliyev nitqində sinonimlər təkcə nitqə əlvanlıq vermək məqsədi daşımır. İzahedicilik də bu sinonim cərgələrin mühüm əlamətlərindəndir: "...*Cəlil Məmmədquluzadənin əsərlərini populyar şəkildə geniş kütlələrə, camaata, xalqa çatdırmaq lazımdır*"[103]. Təkcə *geniş kütlə*, *camaat*, *xalq* sinonim cərgəyə diqqət yetirsək,

---

[99] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.13. –2004. – s.40.

[100] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.5. –1998. – s.411.

[101] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.30. –2010. – s.209.

[102] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.32. –2010. – s.259.

[103] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.3. –1997. – s.181-82.

*camaat* sözünün bir qədər loru, *geniş kütlələr* ifadəsinin isə yüksək kitab leksikasına aid olduğu məlum olar.

Dördüncü fəslin birinci paraqrafının birinci bəndində **"Heydər Əliyevin nitqində sayların üslubi xüsusiyyətləri"** tədqiq edilmişdir. Heydər Əliyevin dilində şifahi şəkildə çoxsaylı rəqəmlərin auditoriyalara çatdırılması say nitq hissəsinin öyrənilməsini zəruri edir. Son illərdə Azərbaycan dilçiliyində nitqdə sayların üslubi-qrammatik xüsusiyyətlərinə diqqət artmışdır[104,105]. Bu baxımdan sayları qruplar üzrə (miqdar sayları, sıra sayları), eləcə də hər qrupu da növlərinə görə Heydər Əliyevin nitqində tədqiq etmək qarşıya bir məqsəd olaraq qoyulmuşdur. Saylar Heydər Əliyevin nitqində aşağıdakı ardıcıllıqla tədqiq olunmuşdur: müəyyən miqdar sayları → təqribi miqdar sayları → kəsr sayları → sıra sayları → sayların müxtəlif auditoriyalarda işlənməsi → sayların müxtəlif üslublarda öyrənilməsi → sayların digər nitq hissələri və öz aralarında əlaqəsi → sayların sözyaratmada rolu.

Böyük natiqin dilində rəqəmlər gah təkrarlanır, gah qətiyyətli ifadələrlə çulğalaşır, gah da səmimi ifadələrlə qoşalaşaraq nitqin təsir gücünü artırır: *"Siz Moskva televiziyasına baxırsınız, görürsünüz ki, maaşların 3 ay, 4 ay, 5 ay verilməməsi, pulun ordan götürülüb buraya, burdan götürülüb oraya göndərilməsi haqqında hər gün danışırlar. Mən demək istəmirəm ki, bizdə hər şey yaxşıdır..."*[106].

Tədqiqat nəticəsində məlum olumuşdur ki, kəsr sayları iqtisadi məsələlərlə bağlı mövzularda daha çox səslənir. Bu saylar natiqin problemlərə incəliklərinə qədər bələd olduğunu göstərir və auditoriyanı da bu incəlikləri görməyə səfərbər edir: *"Ancaq bu müqavilədə Türkiyənin yeri nə idi? 1.75 faiz. Beş faiz də Türkiyə dövlətinə, şirkətinə orada yer ayırdıq. Artıq burada Türkiyənin yeri*

---

[104] Hüseynova M.N. Aşıq və el şairlərinin yaradıcılığında sayların üslubi xüsusiyyətləri // // – Bakı: Dilçilik İnstitutunun əsərləri, – 2017. №2, s.157-168
[105] Sadıqova Sərcan. Sayların simvolikasının linqvokulturoloji aspekti // – Bakı: Dilçilik araşdırmaları, Elm və təhsil, – 2022. №2 – s.94-97
[106] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.8. –1998. – s.83.

*6.75 faiz oldu. Bax biz bu addımı atdıq ki, ölkəmizə Türkiyənin sərmayəsi gəlsin"*[107].

Heydər Əliyev korifey sənətkarların vəfat etmələrini, onların ev muzeylərinin yaradılma tarixlərini sıra sayları vasitəsilə sadalayır.

Saylar Azərbaycanın görkəmli şəxsiyyətlərinin həyat tarixçələrinin auditoriyalara çatdırılmasında mühüm nitq vasitəsinə çevrilir. Sıra sayları Heydər Əliyevin nitqində XX əsr Azərbaycan ədəbiyyatının tanınmış simalarının antroponimik sıralanması ilə vəhdətdə verilir. Bu zaman görkəmli azərbaycançılar auditoriyalara tanıdılır: *"Mən son vaxtı deyirəm, bəli, Məmməd Səid Ordubadi, Hüseyn Cavid, Cəfər Cabbarlı – bunlar şübhəsizdir. Mən 40-cı, 50-ci illəri, yəni 1937-38-ci illərdən sonra yaranmış ədəbiyyatı sayıram"*[108].

Dissertasiyada *"Heydər Əliyevin çıxış etdiyi hər bir auditoriyanın öz rəqəmlər dili"*[109] olduğu diqqətə çatdırılmışdır. Elmlər Akademiyasında ziyalılarla görüşdə söylənilən nitq ölkə həyatında ciddi rol oynayan, tariximizdə araşdırılmağa layiq olan rəqəmlərlə zəngindir. Bu rəqəmlər alimlər auditoriyasını düşündürməyə, düşdüyümüz tarixi situasiyadan baş çıxarmağa sövq edir: *"Bəli, 1918-ci il may ayının 28-də Azərbaycan Demokratik Respublikasının yaranması Azərbaycan tarixində böyük ictimai-siyasi hadisədir. Tarixçilər yaxşı bilirlər ki, 23 ay ərzində bu dövlətin tərkibi beş dəfə dəyişib, bu dövlətdə, bu parlamentdə beş partiya iştirak edib: ...hətta Daşnaksütyun Partiyası..."*[110].

Dördüncü fəslin **"Heydər Əliyevin nitqində əvəzliklərin üslubi xüsusiyyətləri"** adlı birinci paraqrafının ikinci bəndində böyük natiqin nitqində işlənmiş əvəzliklər auditoriyanın

---

[107] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.6. –1998. – s.360.

[108] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.13. –2004. – s.125.

[109] Zamanov, N.T. Heydər Əliyevin nitqində say nitq hissəsinin üslubi xüsusiyyətləri // – Bakı: Azərbaycan Dillər Universiteti dil və ədəbiyyat buraxılışı, – 2015, №1, – s. 15-21.

[110] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.1. –1997. – s.154.

dinləyicilərindən, növündən, nitqin üslubundan, digər nitq elementləri ilə əlaqədən asılı olaraq araşdırılmışdır. Birinci şəxsin təki olan *mən* əvəzliyi Heydər Əliyevin nitqində ölkənin birinci şəxsinin ciddi fikri kimi səslənir. Xalqın mandat verdiyi Prezidentin dilində *mən* əvəzliyi təminat rolunda çıxış edir. Əgər *mən* müəyyən şəxs əvəzliyinə ölkənin birinci şəxsinin dilində ciddi məqamlarda rast gəlinirsə, *biz* birinci şəxsin cəmi isə xalqla birgə fəaliyyət, birgə çalışmaq məqamlarında işlənir: *"Biz müstəqil dövlətik. ...Bizim qüdrətli, möhkəm ordumuz olmalıdır, ona görə ki, müstəqil Azərbaycan dövləti daim qüdrətli olsun"*[111]. *Sən* müəyyən şəxs əvəzliyini Heydər Əliyev özünə doğma hesab etdiyi görkəmli elm, mədəniyyət, ictimai-siyasi xadimlər ilə görüşlərdə tez-tez işlədir. *O və onlar* əvəzlikləri Heydər Əliyevin nitqində müstəqilliyimizə qənim kəsilənlərə, o cümlədən xarici təcavüzkarlara münasibətdə çox işlədilir. Elə həmin qüvvələri təmsil edən şəxslər öz ad və soyadları ilə yox, tez-tez *o* əvəzliyi ilə auditoriyalara təqdim edilir.

Təyin əvəzlikləri içərisində ən çox işlənən *hər bir* əvəzliyi böyük natiqin dilində hər kəsin vəzifəsini, nə etməli olduğunu təyin edir: *"Bununla yanaşı onu da demək istəyirəm ki, hər bir icra hakimiyyəti başçısı, hər bir müəssisə, hər bir imkanlı şəxs orduya yardım etməyə borcludur"*[112]. Heydər Əliyevin dilində inkar əvəzlikləri böyük natiqin qarşısına qoyduğu fikir və ideyaların açıqlanması yolunda aydın bir nitq yaradır, prinsipiallıq nümayiş etdirərək auditoriya üçün situasiyanı yaddaqalan edir: *"Mən bu respublikanın başçısıyam, Prezidentəm. Sizə açıq deyirəm: Fikrə, sözə görə heç kəs nainki cəza ala bilməz, heç kəs töhmətlənə də bilməz, heç kəs heç kəsi incidə bilməz"*[113].

İşarə əvəzlikləri içərisində Heydər Əliyevin nitqində tez-tez təsadüf edilən əvəzliklərdən biri də *bu* əvəzliyidir. Bir çox nitq məqamlarında *bu* əvəzliyi təkrarlanaraq ana fikrin auditoriyaya

---

[111] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.84.

[112] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.37.

[113] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.8. –1998. – s.175.

yönəldilməsində mühüm rol oynayır: *"Bu müqavilələr iqtisadi strategiyamızın böyük bir hissəsidir ...bu müqavilələr Azərbaycanı dünya iqtisadiyyatı ilə daha sıx bağlamağa kömək edir ...bu müqavilələr Azərbaycan ictimaiyyəti tərəfindən böyük məmnuniyyətlə qəbul olunur..."*[114].

Heydər Əliyev *öz* təyin əvəzliyindən məsələlərə fəlsəfi tərəfdən yanaşdıqda tez-tez istifadə edir. Xüsusən də təyin əvəzlikləri fəlsəfi təhlillərdə üzə çıxır: *"İnsan gərək hər bir şeyi özü istədiyi kimi etsin, öz istədiyinə görə etsin və özünün mənəviyyatına uyğun etsin. Hərə özü öz tarixini təhlil etməlidir, hərə özü öz işinə qiymət verməlidir"*[115].

Dördüncü fəslin birinci paraqrafının üçüncü bəndində **"Heydər Əliyevin nitqində feillərin üslubi xüsusiyyətləri"** araşdırılmışdır. Heydər Əliyevin nitqi araşdırılarkən onun dövlət başçısı olması faktı dissertasiya boyu diqqət mərkəzində saxlanılmışdır. Məhz buna görə də felin əmr və vacib şəkilləri əksər hallarda onun nitqində birgə işlənərək tapşırıqları yerinə yetirməli olan məmurları səfərbər edir. "*...tapşırır və tələb edirəm ki, hamı ona tabe olsun. ... bu məsələlərlə ciddi məşğul olmalı və bütün təşkilatların fəaliyyətini əlaqələndirməlidir*"[116].

Araşdırmalar göstərir ki, Heydər Əliyevin nitqi təfəkkür felləri ilə də zəngindir. Ulu Öndərin nitqinin əsasında təfəkkür və nitq feilləri tez-tez birgə təsadüf edir ki, bu da onun nitqində təfəkkür və nitq proseslərinin vəhdətindən xəbər verir. Bu feillər müxtəlif çeşidli auditoriyalarda, xüsusən də təfəkkür sahibi sayılan görkəmli şəxsiyyətlərin yubileylərində daha çox işlədilir: " *Füzulinin əsərləri ...həmişə bizdən ötrü məktəb olmuşdur, bu əsərlərdən dərs almışıq"*[117].

---

[114] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.490.
[115] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.13. –2004. – s.271-272.
[116] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.107.
[117] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.458.

Araşdırma zamanı müəyyən edilmişdir ki, Heydər Əliyevin nitqində feilin bütün zamanları yanaşı işlədilir. Bu da böyük natiqin nitqində zaman uzlaşmalarına ciddi diqqət yetirilməsi ilə bağlıdır: *"Azərbaycan heç bir ölkənin torpağına göz dikməmişdir, heç vaxt qəsbkarlıq yoluna düşməyəcəkdir, işğalçılığı, qəsbkarlığı həmişə pisləmişdir və bundan sonra da pisləyəcəkdir"*[118]. Heydər Əliyevin nitqində *xatirimdədir* ifadəsi feilin keçmiş zamanı ilə harmoniya yaradır, bu ifadənin arxasınca auditoriyanı keçmişə aparır, nitq böyük həvəslə dinlənilir.

Tədqiqatda feil şəkillərinin öyrənilməsinə ayrıca yer ayrılmışdır. Onun AMEA-dakı (21 sentyabr 1993-cü il) çıxışında feil şəkilləri aşağıdakı kimi paylanmışdır: xəbər şəkli – 68.4%, vacib şəkli – 15.4%, əmr şəkli – 8.8%, şərt şəkli – 6.8%, arzu şəkli – 0.6%. Heydər Əliyevin nitqində şərt şəkli qəti gələcək zamanla birgə daha çox təsadüf edilir. Qəti gələcək zaman sanki öncədən qoyulan şərtlərin ödənilməsini təmin edir: *"...bir-birimizin əllərindən nə qədər möhkəm tutsaq, bir-birimizə nə qədər yaxın olsaq, müstəqil Azərbaycanın yaşamasına o qədər çox nail olacaq, xalqımız onun başına gələn bugünkü bəlalardan xilas olacaq...*[119]*"*. Heydər Əliyev ölkə problemləri ilə bağlı keçirdiyi müşavirələrdə çatışmazlıqlar və nöqsanların yaranma şərtlərini felin şərt şəkli vasitəsilə ortaya qoyur, sonda isə felin vacib və əmr şəkilləri ilə vəziyyətdən çıxmağın yollarını göstərir.

Həm zaman, həm hal-vəziyyət, həm də davamiyyət məzmunu bildirən *-dıqca (-dikcə, -duqca, -dükcə)* şəkilçisi ilə işlənmiş feili bağlamalar böyük natiqin nitqində yerli-yerində işlənmişdir: *" Onlara baxdıqca, insanların üzlərində olan təbəssümü, gülüşü gördükcə, adamları dinlədikcə düşünürsən ki, həyatımızda nə qədər böyük dəyişiliklər baş veribdir!"*[120]

---

[118] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.51.
[119] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.85.
[120] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.9. –2000. – s.39.

**“Heydər Əliyevin nitqində zərflərin üslubi xüsusiyyətləri” adlı** dördüncü fəslin birinci paraqrafının dördüncü bəndində zərflərin semantik qrupları tədqiq edilmişdir. Bu əsas nitq hissəsinin köməyilə Ulu Öndər haqqında danışdığı hadisələri zaman və məkana uyğunlaşdırır, onlara özünün münasibətini ifadə edir. Heydər Əliyevin həyatda tutduğu mövqe ilə nitqində işlətdiyi zərflər arasında dialektik vəhdət araşdırılmışdır. Tərzi-hərəkət zərfləri böyük natiqə nitqinə dinamiklik verməkdə kömək edir. Eləcə də böyük natiqin dilində auditoriyalara ünvanlanan *üz-üzə*, *yan-yana* tərzi-hərəkət zərfləri *lider-xalq*, *xalq-lider* vəhdətini sübut edir. İşini zamanla uyğunlaşdıran, zamana qiymət qoyan Heydər Əliyevin nitqində zaman zərflərinin yeri mühümdür.

Heydər Əliyevin nitqində ən çox təsadüf olunan zaman zərfləri aşağıdakı kimi qruplaşdırılmışdır: Sadə zaman zərfləri: *indi, bayaq, dünən, daim, həmişə, əvvəl, dərhal, səhər, sabah və s.* Düzəltmə zaman zərflər – *hələlik, tezliklə, bayaqdan, dünəndən, onda, əvvəlcə.*

Mürəkkəb zaman zərfləri: *tez-tez, ilk əvvəl, gecə-gündüz, əvvəl-axır, sonradan-sonraya, gün-gündən, gündən-günə, bu zaman, o vaxt, anbaan, ilbəil.* Tədqiqat nəticəsində məlum olmuşdur ki, Heydər Əliyevin nitqində yer zərfləri içərisində ən çox aşağıdakılara təsadüf edilir: Sadə yer zərfləri: *irəli, irəliyə, irəlidə, irəlidən, geri, geriyə, geridə, geridən, bura, buraya, burada (burda), buradan (burdan), ora, orada, oradan.* Düzəltmə yer zərfləri: *ortalıqda, yaxınlıqda.* Mürəkkəb yer zərfləri: *ora-bura, orda-burda, sağa-sola, arada-bərədə, o tərəf-bu tərəfə, heç yerdə, hər tərəfdən.*

Zaman və tərzi-hərəkət zərfləri elə gözəl çulğalaşır ki, zərflərin nitqə belə bir ekspressivlik verməsi inanılmaz olur: *“Bunun hesabına sonrakı illərdə biz qaz hasilatını əvvəlcə tədricən, sonra da sürətlə artırmaq fikrindəyik”*[121]. Bu bir cümlədə *əvvəlcə*, *sonra* kimi zaman zərfləri *tədricən*, *sürətlə* tərzi-hərəkət zərfləri ilə antonimik harmoniya yaradır. Heydər Əliyevə məxsus nitqin bir məziyyəti də zərflərin sinonim cərgələr şəklində verilməsidir: *“Azərbaycanda iqtisadi islahatların daha da sürətlə, dərin, geniş həyata keçirilməsi*

[121] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.7. –1998. – s.51.

*ili olacaqdır"*[122]. Başqa bir mürəkkəb zaman zərfi *gecə-gündüz* böyük natiqin dilində bir sıra həyati vacib məsələlərin həlli yolunda dayanmadan çalışmağı ifadə edir.

Dissertasiyanın dördüncü fəslinin **"Heydər Əliyevin nitqində qoşmaların üslubi xüsusiyyətləri"** başlıqlı ikinci paraqrafının birinci bəndində bu köməkçi nitq hissəsinin Ulu Öndərin nitqində işlənmə məqamları tədqiq olunmuşdur. Heydər Əliyevin nitqinin tədqiqi belə bir fikir söyləməyə əsas verir ki, Ulu Öndərin nitqində ekspressivlik qazanmaq baxımından əsas və köməkçi nitq hissələri arasında xüsusi bir sədd yoxdur.

Böyük natiqin nitqində qoşmalar müxtəlif mənalar daşıyaraq nitqin auditoriyalar tərəfindən asan qavranılmasına xidmət edir. Qoşmaların işlənmə tezliyini böyük natiqin "AMEA rəhbərliyi ilə görüşdəki" çıxışında araşdırdıqda məlum olmuşdur ki 88 yerdə qoşmalardan istifadə olunmuşdur: Qoşmalar arasında *üçün* – 30.0%, *ilə* – 15.0%, *sonra* – 9.5%, *görə* – 9.0%, *kimi, öncə, nisbətən, haqqında*" qoşmaları hər biri – 4.2% təsadüf etmişdir. Eləcə də bu çıxışda *başqa, əvvəl, aid, ötrü, qədər, qarşı, qabaq"* kimi qoşmalar da işlənmişdir"[123].

Böyük natiqin nitqinin araşdırılması sayəsində məlum olur ki, bəzən bir cümlədə müxtəlif məna çalarlarına malik üç və daha çox qoşma işlədilir. Bu zaman həmin qoşmalar harmonik şəkildə uzlaşaraq nitqə xüsusi bir ekspressivlik qazandırır.

Heydər Əliyevin nitqində qarşıya qoyulan məqsədlər çeşidli auditoriyalarda səbəb-məqsəd məzmunu yaradan *üçün* qoşmasının köməyi ilə açılır. Müxtəlif məsələlərin məzmununu açmaqda müqayisələrin ciddi nitq amili olduğundan böyük natiq *üçün* qoşmasından tez-tez istifadə edir: *"...region üçün, Azərbaycan üçün bu üç il müddətində burada bir milyard dollar məbləğində müştərək iş görülməsi çox böyük və sevindirici bir hadisədir"*[124]. Nisbi

---

[122] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.9. –2000. – s.170.

[123] Zamanov, N.T. Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti II c. / N.Zamanov. – Bakı: Elm və təhsil, – 2014. – s. 115.

[124] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.13. –2004. – s.188.

müqayisə bildirən *nisbətən* qoşması Heydər Əliyevin paralellər apardığı çeşidli auditoriyalarda tez-tez səslənir: *"...istehsal keçən ilin müvafiq dövründəkinə nisbətən aşağı düşmüşdür, hətta bəzi sahələrdə lap aşağı olmuşdur"*[125].

Heydər Əliyevin işgüzar-publisistik üslublu çıxışlarında əsas nitq hissələri ilə köməkçi nitq hissələri arasında keçid mərhələ təşkil edən *haqqında, barəsində, haqda, barədə* qoşmaları daha çox işlədilir: *"Azərbaycanın güclü elmi potensialı haqqında danışarkən, şübhəsiz ki, birinci növbədə elmi nailiyyətlərini nəzərdə tuturuq və xüsusən Elmlər Akademiyasının əldə etdiyi nailiyyətləri nəzərdə tuturuq "*[126].

*Sonra* qoşması *bu* işarə əvəzliyinə qoşularaq qəti gələcək zamanda səslənən cümlələrdə çox işlədilir. *Sonra* qoşması *az* qeyri-müəyyən sayı ilə birləşəndə zaman anının yaxınlığını, *bir neçə ildən sonra*[127] ifadəsində isə zaman anının uzaqlığını bildirir. *Əvvəl, qabaq* qoşmalarının sinonimi kimi *öncə* qoşması da keçmiş zaman baxımından böyük natiqin dilində tez-tez səslənir.

**"Heydər Əliyevin nitqində bağlayıcıların üslubi xüsusiyyətləri"** dördüncü fəsilin, ikinci paraqrafının ikinci bəndində tədqiq olunmuşdur. Heydər Əliyevin nitqində nitqin məna tutumunun yüksəlməsi, nitqin auditoriya tərəfindən canlı şəkildə qəbul olunması məsələsində bağlayıcıların da mühüm rolu aşkara çıxarılmışdır.

Məlum olmuşdur ki, bağlayıcıların köməyi ilə nitqə ekspressivlik qazandırmaq Heydər Əliyev nitqinə xas olan səciyyəvi bir xüsusiyyətdir. Belə ki, qarşılaşdırma məzmunlu *lakin, ancaq, amma* bağlayıcılarını eşidən auditoriya böyük natiqdən bu bağlayıcılara qədər olan fikrin qarşılığını gözləyir, yeni bir fikrin ortaya qoyulacağını səbirsizliklə gözləyir: *"Bu gün danışdığımız dil 20-ci illərdə danışılan dil deyil. Amma ondan qat-qat yaxşı dildir,*

---

[125] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.113.
[126] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.8. –1997. – s.360.
[127] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.12. –1997. – s.335.

*ondan qat-qat təmiz dildir, ondan qat-qat mükəmməl dildir"*[128]. Şifahi nitqdə az işlənən *və* bağlayıcısı Heydər Əliyevin nitqində yerli-yerində işlənməklə yanaşı, nitqə bir ekspressivlik də qazandıra bilir. *Və* bağlayıcısı Heydər Əliyevin sırf siyasi çıxışlarında daha çox yer alır: *"Bu hadisə həm Rusiyada, həm də Azərbaycanda baş verən demokratik dəyişikliklərlə bağlıdır və xalqlarımızın daha çox ünsiyyət saxlamasına və onların əlaqələrinin möhkəmlənməsinə kömək edir"*[129].

Müxtəlif məna növlü bağlayıcılar bəzi hallarda bir cümlənin içində belə yüksək səviyyəli mənaları auditoriyalara çatdırmaqda böyük natiqə yardımçı olur. *Həm, həm də* iştirak bildirən bağlayıcılar böyük natiqin dilində hissələri tamda birləşdirmək anlamında daha çox istifadə olunur. Eləcə də *həm, həm də* bağlayıcıları bütövü təşkil edən hissələrin sadalanması məqamlarında istifadə olunur: *"Sizi qəlbimizdə, könlümüzdə həm Füzuli bayramında, həm də bütün bayramlarda qəbul etməyə, qarşılamağa hazırıq"*[130]. Heydər Əliyevin nitqində tabesizlik və tabelilik bağlayıcıları bir-birilə çulğalaşaraq harmoniya yarada, auditoriyanı öz cazibəsində saxlaya bilir. Prinsipiallıq, qətiyyət, müstəqillik yolunda güzəştə getməmək məqamlarında *nə...nə də* inkar bağlayıcıları dilə gətirilir: *"...yazırlar ki, Dağlıq Qarabağın ordusu dünyada ən güclü ordudur... biz nə hədədən qorxuruq, nə də onların gücündən qorxuruq"*[131]. Qarşılaşdırma bildirən *ancaq* bağlayıcısı Heydər Əliyevin dilində fəlsəfi kateqoriyaların dialektik ziddiyyətini vermək məqamlarında işlədilir. *Özü də* bağlayıcısı *həm, həm də* bağlayıcısı ilə bir qrupda olsa da, bu bağlayıcı Heydər Əliyevin dilində dəqiqləşdiricilik funksiyası daşıyır. *Ya, ya da* bağlayıcılarına gəldikdə isə, bu leksik vahidlər Heydər Əliyevin nitqində biri digərinin əksi olan fikirləri

---

[128] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.13. –2004. – s.133.

[129] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.8. –1998. – s.67.

[130] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.479.

[131] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.31. –2001. – s.188.

ifadə etmək baxımından mühümdür: *"Ya xalqımı qoruyub saxlayacağam, ya da burda həlak olmağa hazıram"* [132]. *O cümlədən* bağlayıcısı tamdan hissəni ayırmaq məqsədi ilə işlədilmişdir: *"Füzuli təkcə Şərqdə yox, ...o cümlədən inkişaf etmiş Qərb ölkələrində çox məşhur olmuşdur"*[133].

Dördüncü fəslin ikinci paraqrafının üçüncü bəndində **"Heydər Əliyevin nitqində ədatların üslubi xüsusiyyətləri"** araşdırılmışdır. Mənaca müxtəlif olan ədatlar Heydər Əliyevin 1993-cü il 15 iyun – 1994-cü il dekabr dövrünü əhatə edən çıxışları əsasında araşdırılmış və faizlə öz əksini tapmışdır. Məlum olmuşdur ki, qüvvətləndirici ədatlar 44.3% təşkil edərək çıxışlarda ön yeri tutur. Bu zaman *axı, ən, daha, hətta, da, də* qüvvətləndirici ədatları aparıcı rola malik olmuşdur. Məişət üslublu nitqdə çox işlənən *lap, ha, -ca, necə* qüvvətləndirici ədatları isə çox az işlənmişdir.

Təsdiq və inkar ədatları 16.4% olmaqla böyük natiqin nitqində ikinci yeri tutmuşdur. Bunların içərisində daha çox *bəli, xeyr, yox* ədatları, ən az isə *bəli də, hə, heç, heç də* ədatlarına təsadüf olunur. Böyük natiqin dilində *yox* inkar ədatı prinsipiallıq məqamlarında daha çox işlədilir: *"Yox....Ancaq vəzifə çərçivəsində, şübhəsiz ki, biz hamımız nizam-intizama tabe olmalıyıq, biz hamımız qanuna tabe olmalıyıq..."*[134].

İşlənmə tezliyinə görə üçüncü yeri 15.9% olmaqla dəqiqləşdirici ədatlar tutmuşdur ki, bu ədatlar içərisində *məhz, elə* üstünlük təşkil etmişdir. Əmr ədatlarına gəlincə, onlar Heydər Əliyev nitqində 10.6% yer tutmuşdur. Bu ədatlardan, əsasən, *qoy, bax, gəlin, görün* daha çox işlənmiş, *gəlsənə, qoysana, di* əmr ədatları isə tək-tək hallarda işlənmişdir. Heydər Əliyev nitqindəki ritorik sualların əsasını təşkil edən sual ədatlarına gəlincə, bunlar 7.1% təşkil etmişdir. Bu sıradan ən az *yəni*, ən çox isə *məgər, bəs, -mı*[4] sual ədatları işlədilmişdir. Heydər Əliyevin nitqində digər

---

[132] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.12. –2003. – s.92.

[133] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.2. –1997. – s.478.

[134] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.1. –1997. – s.13.

ədatlarla müqayisədə məhdudlaşdırıcı (2.6%) və arzu (1.7%) ədatları ən az yer tutmuşdur. *Kaş, kaş ki, barı* kimi arzu ədatlarının işlənilməməsi və yaxud az işlənməsi bir daha Heydər Əliyevin real həyata söykənən ciddi dövlət xadimi olmağından irəli gəlir.

Eləcə də ictimai-siyasi dövrün gərgin olduğu 1993-cü ildəki çıxışla (AMEA-da) 1997-ci ildə YAP-ın 5-ci ildönümü münasibətilə edilən çıxışlar arasında müqayisə aparılmışdır. Məlum olmuşdur ki, 1993-cü ildə çıxış həcmi 1997-ci illə müqayisədə az olsa da, ədatların sayı 70, bu rəqəm nisbətən sakit dövrdə isə 59 olmuşdur[135].

Dördüncü fəslin **"Heydər Əliyevin nitqində modal sözlərin üslubi xüsusiyyətləri"** adlı ikinci paraqrafında ictimai-siyasi dövrlərdən asılı olaraq, modal sözlər araşdırılmışdır. Modal sözlərin əsas vəzifəsi modallığı müxtəlif tərzdə ifadə etməkdən ibarətdir. "*Modallıq isə müxtəlif bir iş, hadisə, əşya, əlamət və keyfiyyət haqqında verilən hökmün gerçəkliyini, həqiqiliyini ya təsdiq, ya da inkar edən, söylənilən fikirlə bağlı müəyyən münasibət bildirən məntiqi-qrammatik kateqoriya hesab olunur*"[136].

Məntiqi-qrammatik məna daşıyan modal sözlərin Heydər Əliyevin nitqində öyrənilməsi digər nitq hissələri ilə müqayisədə xüsusi əhəmiyyət kəsb edir. Təsdiq bildirən modal sözlər içərisində *düzdür* modal sözü Heydər Əliyev nitqində xüsusi çəkiyə malikdir. Auditoriya bu modal sözün köməyi ilə situasiyanı düzgün başa düşür: "*Düzdür, zərər vurublar – həm mənəvi, həm də maddi zərər vurublar. Düzdür, insanların bir hissəsinin beyinlərini zəhərləyiblər, onların psixologiyasını korlayıblar*"[137].

*Güman edirəm ki* modal sözü böyük natiqin nitqində ilk baxışdan, güman bildirirsə, zaman Heydər Əliyev nitqində gümana yer qalmadığını göstərir. Modal sözlər içərisində *təəssüf ki, təəssüflər olsun ki* kimi mürəkkəb modal sözlər Heydər Əliyev nitqində

---

[135] Zamanov, N.T. Heydər Əliyevin nitqində ictimai-siyasi dövrlərdən asılı olaraq ədatların paylanması // – Bakı: Dilçilik İnstitutunun əsərləri, – 2017, №2, – s. 175-188.

[136] M.Hüseynzadə, Müasir Azərbaycan dili. Morfologiya / M. Hüseynzadə. – Bakı: Şərq-Qərb, –2007. – s.264.

[137] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.1. –1997. – s.140-141.

cəmiyyətdə müxtəlif sahələrdəki çatışmazlıqlar, nöqsanlar cəmiyyətə zidd hərəkətlər müşahidə edilən məqamlarda işlənir.Bu modal sözlər çıxışın məzmununa uyğun gələrək, onun auditoriyalardakı təsir gücünü artırır. Natiqlik sənətində hadisələrə natqin öz baxışlarını, şəxsi fikirlərini bildirən *zənnimcə*, *fikrimcə* modal sözlərinə də Heydər Əliyevin nitqində təsadüf edilir. *Zənnimcə* modal sözü müxtəlifyönlü məsələlərə böyük natiqin şəxsi münasibətini bildirir. Eləcə də ictimai-siyasi dövrün gərgin olduğu 1993-cü ildəki çıxışla (AMEA-da kı ) 1997-ci ildə YAP-ın 5-ci ildönümündəki çıxış müqayisə olunmuşdur. Məlum olmuşdur ki, gərgin dövrdə modal sözlərin sayı 48, nisbətən sakit dövrdə isə 30 olmuşdur[138].

**Tədqiqat zamanı aşağıdakı nəticələr əldə edilmişdir:**

1. Heydər Əliyevin nitqində qarşıya qoyulan məsələlərin məzmunu nitqin giriş hissələrində auditoriyaların diqqətinə çatdırılır. Auditoriya Heydər Əliyev nitqinin girişlərində nitqin söyləndiyi zaman və məkanla həmin ərəfəyə düşən tarixi hadisələrin bir-biriylə əlaqələndirilməsinin şahidi olur. Heydər Əliyevin nitqinin sonluq hissələri isə bir qayda olaraq nitqin girişində qarşıya qoyulan məsələlərin həlli kimi verilir. Sonluqların üslublardan, ictimai-siyasi dövrlərdən, dinləyicilərin mənsubiyyətindən asılı olaraq yaddaqalan edilməsi Heydər Əliyev nitqinin səciyyəvi xüsusiyyətlərindəndir. Çıxışların əksəriyyəti səfərbəredici nikbin ifadələrlə, epiforalarla bitir. Dövlət quruculuğu, eləcə də hərbi quruculuqla bağlı nitqlərdə qətiyyətli ifadələr sonluqlarda üstün yer tutur.

Heydər Əliyev nitqinin əsas hissəsi məntiqi ardıcıllığa söykənərək müxtəlif nitq məqamlarında nitq körpüləri vasitəsi ilə həyata keçirilir. Natiqlik üçün çətin məqamlardan biri də fikirlər arasına salınan nitq körpüləridir ki, Heydər Əliyevin nitqində auditoriya onu hiss etmir və ya əksinə, yeni fikri maraqla dinləməyə başlayır.

[138] Zamanov, N.T. // Heydər Əliyevin nitqində ictimai-siyasi dövrlərdən asılı olaraq modal sözlərin paylanması // Akademik Ağamusa Axundovun 85 illiyinə həsr olunmuş “Ağamusa Axundov və Azərbaycan filologiyası” beynəlxalq elmi konfransın materialları, − Bakı: – 24-25 aprel , − 2017, − s.234-237.

Məlum olmuşdur ki, Heydər Əliyevin nitqi üçün məntiqə söykənən, sistemliliyə, ümumiləşdimələrə gətirib çıxaran ardıcıllıqlar xasdır.

2. Heydər Əliyevin nitq və çıxışlarında tez-tez təsadüf edilən *dialektik nöqteyi-nəzərdən yanaşıram, dialektik nöqteyi-nəzərdən baxıram* ifadələri onun dövlət başçısı-filosof xarakterini açır. Dialektik qanunlar böyük natiqin çıxışlarında sadə xalq dilində işlənərək çeşidli auditoriyaları düşündürür, nitqin cazibə qüvvəsini gücləndirir.

Bu gün müasir cəmiyyət üçün səciyyəvi olan bir sıra problemlər: inflyasiya, işsizliyin artması, biganəlik, süstlük, narazılıq, dəyərlərin böhranı, alkoqolizm, narkomaniya, korrupsiya və s. kimi hallar Heydər Əliyev nitqində çözülür, qiymətləndirilir, onların çıxış yolları göstərilir. Bu çıxış yolları qətiyyətli ifadələrlə – *şübhəsiz ki, tədbirlər görməlidirlər, fikir verməliyik* – auditoriyalara yön alır. Ruhuna fəlsəfilik hopmuş bu mütəfəkkir filosof nitqi bir sıra modal sözlərlə dinləyiciləri səfərbər edir. Heydər Əliyev fəlsəfi dünyagörüşünün Azərbaycan dilinin ifadə imkanları hesabına auditoriyalara çatdırılması yeni insan, yeni dünyagörüşü məsələlərinin həllində mühüm əhəmiyyət kəsb edir.

Ulu Öndərin nitqinin bir gücü də səmimiyyət anlayışındadır ki, belə səmimi ifadələrin köməyi ilə qurulan nitq daha yaddaqalan olur. Tədqiqatda səmimiyyətin təvazökarlığa söykənməsi, etiraflarla, fəlsəfi çalarlarla, izahlarla zənginliyi araşdırılmış, xəlqilik çıxışlardan gətirilən tutarlı sitatlarla sübuta yetirilmişdir. Böyük natiqin nitqlərində çox təsadüf edilən səmimi ifadələr: *bunları etiraf etmək lazımdır, mən şox açıq danışan adamam, səhvlər də olacaqdır, nöqsanlar da, çatışmazlıqlarımız hələ çoxdur* və s. ayrıca qeydə alınmışdır.

Heydər Əliyevin nitqindəki qətiyyət auditoriyalara, əsasən, feilin qəti gələcək zamanında, lazım şəklində ünvanlanmışdır. Qətiyyət tələb olunan çıxış məqamlarından öncə cəmiyyətdə təəssüfə səbəb ola biləcək nöqsanlar, çatışmazlıqlar sadalanır. *Təəssüf ki, təəssüflər olsun ki* modal sözləri ilə aydınlaşan situasiya sonda çatışmazlıqların aradan qaldırılmasına yönələn qətiyyətli ifadələrlə yekunlaşır. *Şübhəsiz ki* modal sözü böyük natiqin dilində qətiyyətlilik tələb olunan yerlərdə bu qətiyyətə zərrə qədər də olsa, şübhə yeri qoymur.

Heydər Əliyev nitqində nikbinlik qətiyyətlə birgə auditoriyalara yönəlir. Nikbinliklə zəngin çıxışlar ən çox Azərbaycanın gələcəyi olan uşaqlar və gənclərin toplaşdığı tədbirlərdə səslənir. Ulu Öndərin əminlik bildirən modal sözlərlə müşayiət olunan nitqi ölkənin düşdüyü vəziyyətdən çıxmasına təminat verir. Bir çox hallarda böyük natiqin nikbinliklə dolu çıxışları epifora tipində xitablarla yekunlaşır.

Heydər Əliyev nitqini gələcəyi aydın görmək qabiliyyəti kimi səciyyələnən proqnozlarsız təsəvvür etmək mümkün deyil. Auditoriya analitik təfəkkür əsasında ictimai-siyasi, sosial-iqtisadi inkişafın gələcək üfüqlərini açıb göstərən böyük natiqin hər çıxışında proqnostik fikirləri tutur, Heydər Əliyevin fikir və ideyalarının reallaşacağına inanır. Məhz bu inam auditoriyanı səfərbər edir, Ulu Öndərin şəxsində gələcəyə, müstəqilliyimizə gedən yola işıq saçır. Qəti gələcək zamanda səslənən bu proqnostik fikirlər araşdırılmaq baxımından mühümdür.

3. Rəsmi-işgüzar üslubun Heydər Əliyev dilində bir sıra xarakterik xüsusiyyətləri müşahidə olunur. Rəsmi sənədlərə ciddi məntiqi ardıcıllıqlar xasdır ki, fərman və sərəncamları yerinə yetirməli olan dövlət qurumları yuxarıdan aşağıya doğru ardıcıllıqla təqdim olunur. Heydər Əliyevin imzaladığı rəsmi sənədlərdə belə onun izahedici, qətiyyətli nitqi özünü büruzə verir. Sinonimlər, frazeologizmlər rəsmi-işgüzar üsluba aid olmasa da, Heydər Əliyevin təküslubluğa sığmayan nitqində öz əksini tapır.

4. Elmi üslubun tələb etdiyi terminlərə geniş yer verilməsi Heydər Əliyevin çıxışlarında da qabarıq şəkildə özünü göstərir. Emosionallıq, obrazlılıq elmi üslub üçün xarakterik olmasa da, Heydər Əliyevin nitqi burada da, necə deyərlər, qəlibə-təsnifata sığmır. Belə *kənaraçıxmalar* Heydər Əliyevin akademik nitqinə xüsusi çalarlar verir. Heydər Əliyevin nitqinin başlıca cəhəti və mühüm gücü anlayışlara verilən özünəməxsus Heydər Əliyev izahlarıdır. Bu izahlara – novatorcasına düşüncə tərzinə bir tərəfdən elmilik, digər tərəfdən sadə xalq dilində auditoriyalara ünvanlanmaq xasdır.

5. Bədii üslub Heydər Əliyevin çıxışlarında poetik duyğuların, eləcə də ritorik sualların araşdırılması əsasında öyrənilmişdir. Poetik

duyğular çeşidli auditoriyalarda özünəməxsus Heydər Əliyev üslubunda dinləyicilərə çatdırılır. Poetik nitq xüsusilə bədii gecələrdə, ədəbiyyat və mədəniyyət xadimlərinin yubileylərində özünü göstərir. Heydər Əliyev nitqində poetik izahlar da mühüm yer tutur ki, bu hal da özünü Azərbaycan incəsənəti ilə bağlı fikirlərdə daha dolğun bir şəkildə göstərir.

Heydər Əliyevin bədii üsluba aid nitqq və çıxışlarında ritorik suallar nitqə müxtəlif bədii çalarlar verir. Ritorik sualların təsdiqi və ya inkarı nitqin emosionallığını daha da artırmaq və gücləndirmək üçün bir vasitə rolunu oynayır. Ritorik sual cümlələri Heydər Əliyev nitqi üçün incə, dərin mətləbləri asan bir şəkildə çatdırmaq yolunda mühüm vasitədir. Ulu Öndərin nitqində ritorik suallar əksər hallarda sual ədatları ilə formalaşsa da, bir sıra hallarda sual intonasiyası ilə yaradılır.

6. Heydər Əliyevin nitqində publisistik üslubda siyasi, sosial, iqtisadi məsələlər, həyatda baş verən müxtəlif hadisələr, faktlar sadə şəkildə öz ifadəsini tapır. Məlumatları dinləyicilərə çatdırarkən Heydər Əliyev nitqinə xas olan məntiqi ardıcıllıq əsas götürülür. Məlum olmuşdur ki, publisistik üslub Heydər Əliyevin nitqində standart sözlərlə yanaşı mənalı, emosional nitq vasitələri ilə də özünü göstərir. Publisistik üslublu nitqdə ekspressivliyi gücləndirmək baxımından sinonimlər, frazeologizmlər kifayət qədər işlənmişdir. Heydər Əliyevin publisistik üslublu nitqində müxtəlif dil vasitələrindən, xüsusilə ritorik suallardan da nitqin məna gücünü artırmaq üçün istifadə olunmuşdur.

7. Heydər Əliyevin məişət üslublu nitqi, əsasən, müsahibə və söhbətlərdə, eləcə də matəm mərasimlərində, müqəddəs dini ocaqlarda, dini mərasim və bayramlarda özünü qabarıq bir biçimdə göstərmişdir. Məişət üslublu Heydər Əliyev nitqi özündə siyasi, fəlsəfi, milli, elmi, dini dəyərləri ehtiva edir. Bu üslubda böyük natiq özünəməxsus *xatirimdədir* sözünü işlətməklə auditoriyanı özü ilə keçmiş tariximizə aparır, nitqi yaddaqalan edir. Heydər Əliyevin məişət üslublu nitqi auditoriyanı çaşqınlıqdan, tərəddüddən çıxararaq düzgün yola yönəldir.

Heydər Əliyevin dilində məişət üslubunun əsas elementi kimi dini natiqlik də tədqiq olunmuşdur. Böyük natiqin dini ocaqlardakı

çıxışları dövlətçilik elementləri ilə zəngindir. Dini dəyərlərimizi bugünkü vətənpərvərliklə bağlaya bilmək böyük natiqin məişət üslublu çıxışları üçün səciyyəvi bir haldır.

8. Heydər Əliyevin nitqinə xas olan izahedicilik frazeologizmlərin işlənməsində daha qabarıq şəkildə özünü göstərir. Frazeologizmlərin ardınca onun sinonimi gəlir, auditoriya fikrin izahını elə böyük natiqin öz dilindən də eşidir. Lider və xalq vəhdətini anlamaq üçün Heydər Əliyevin tez-tez müraciət etdiyi frazeologizmlərdən *ayağa qalxmaq, xalqın gücünə arxalanmaq, ümid bəsləmək, ümidləri doğrultmaq, həyatı xalqa bağışlamaq,* eləcə də *həyatı xalqa qurban vermək* və s. kimi çoxsaylı frazeologizmlər göstərmək olar.

Öz xalqı qarşısında, xalqın gələcəyi, mövcudluğu baxımından meydanlara atılan və bu zaman məsuliyyətini dilə gətirən Heydər Əliyevin nitqində öz *üzərimə götürmək* frazeologizminə çox təsadüf edilir.

Böyük natiqin dilində ciddi, qlobal məsələlər auditoriyalara sadə, ümumişlək, xalq ruhundan qidalanan frazeologizmlərin köməyi ilə çatdırılır. Bu zaman işlədilən frazeologizmlərin köməyi ilə xalqın dil yaddaşı təzələnir, arxaikliklə müasirlik çulğalaşır.

9. Heydər Əliyev nitqində səslənən sinonimlərin ikinci və üçüncü tərəfləri, bir qayda olaraq, izah xarakterində olur. Nitqin gedişində böyük natiq gah ümumişlək, gah da yüksək kitab leksikasında olan sözləri sinonimləşdirir. Heydər Əliyev nitqindəki sinonim cərgələrin ayrı-ayrı tərkib hissələri birbaşa sinonim olmasa da, çıxışlarda auditoriya bunları bir-birindən ayrılmayan, biri digərini gücləndirən və nitqin auditoriyaya olan təsirini artıran sinonimlər kimi qəbul edir.

Ulu Öndərin nitqində işlədilən sinonimlər müxtəlif üslublarda öz yerini tapsa da, bədii-publisistik ruhlu çıxışlarda daha çox işlədilir. Heydər Əliyev nitqində sinonimlər poetik ovqat yaratmaqla yanaşı, siyasi izahedicilik də bu sinonim cərgələrin mühüm əlamətlərindən hesab olunur.

10. Heydər Əliyevin nitqində əsas nitq hissələrindən say mahiyyətin rəqəmlərin dili ilə dinləyicilərə açıqlanmasında, nitqin təsir gücünün artırılmasında mühüm rol oynayır ki, bu hal da bir sıra məqamlarla şərtlənmişdir: saylar Heydər Əliyevin elmi üslublu,

eləcə də iqtisadiyyat və kənd təsərrüfatı ilə bağlı müşavirələrdəki çıxışlarında tez-tez səslənir; tarixi həqiqətlərin xalqa çatdırılmasında mühüm rol oynayır. Saylarla bağlı nitqin bir xüsusiyyəti də ondan ibarətdir ki, auditoriya rəqəmlərin dinlənilməsinə hazırlanmış olur.

Qeyri-müəyyən saylar içərisində böyük natiqin nitqində *çox, çoxlu, artıq, az* leksik vahidlər daha çox işlədilmişdir.

11. Heydər Əliyevin nitqində müəyyən şəxs əvəzliyi *mən* ölkənin birinci şəxsinin məsuliyyəti təkbaşına üzərinə götürdüyü məqamlarda, *biz* şəxs əvəzliyi böyük natiqin dilində *xalqla bir olmaq, xalqa yaxınlaşmaq* mənalarında işlənərək auditoriyalarda doğmalıq hissləri yaradır. *Sən* müəyyən şəxs əvəzliyini Heydər Əliyev özünə doğma hesab etdiyi görkəmli elm, mədəniyyət, ictimai-siyasi xadimlərlə olan görüşlərdə tez-tez işlədir. *Hər bir* təyini əvəzliyinin köməyi ilə böyük natiq auditoriyaları səfərbər edirsə, *heç kəs* inkar əvəzliyi ilə qanunların qorunması yolunda prinsipiallıq nümayiş etdirir.

12. Heydər Əliyevin nitqlərində feilin bütün zamanları yanaşı işlədilir ki, bu da böyük natiqin zaman uzlaşmalarına ciddi diqqət yetirməsi ilə bağlıdır.

Ulu Öndərin nitqində təfəkkür və nitq feillərinə tez-tez birgə təsadüf edilir ki, bu da təfəkkür və nitq proseslərinin vəhdətindən xəbər verir. Heydər Əliyevin çıxışlarında qəti gələcək zamana daha çox yer verilmişdir. Təfəkkür feilləri isə çeşidli auditoriyalarda, xüsusən də təfəkkür sahibi olan görkəmli şəxsiyyətlərin yubileylərində yer alır. Heydər Əliyevin qətiyyətli çıxışlarında feilin vacib şəkli ilə qəti gələcək zamana çox vaxt birgə təsadüf edilir. Feilin şərt şəkli ilə qəti gələcək zaman arasında nitq əlaqəsi və bu zaman şərt bağlayıcılarının da nitq prosesinə qoşulması Heydər Əliyevin nitqlərində belə bir sxem yaratmağa imkan verir: şərt bağlayıcısı – feilin şərt şəkli – feilin qəti gələcək zamanı.

13. *Günü-gündən* mürəkkəb zaman zərfi böyük natiqin nitqində tez-tez təkrar olunur. Bu zaman zərfinin köməyi ilə dinamik zamanda baş verməli olan məsələlər izah olunur. Heydər Əliyevin nitqində düzəltmə tərzi-hərəkət zərfləri qüvvətləndirici ədatlarla müştərək işlənərək fikrin auditoriyalara olan təsir gücünü artırır. Zaman zərfi *gecə-gündüz* böyük natiqin dilində bir sıra həyati vacib

məsələlərin həlli yolunda çalışmağı ifadə edir. Tərzi-hərəkət zərfləri böyük natiqə fikrini səlis və gözəl ifadə etməyə imkan verir, nitqin dinamikliyini təmin edir. Mürəkkəb tərzi-hərəkət zərfləri içərisində Heydər Əliyevin nitqində tez-tez müşahidə etdiyimiz *yan-yana*, *üz-üzə* leksik vahidləridir ki, bu da lider-xalq vəhdətinə işarədir.

14. İsmin yönlük halında işlənən sözlərə qoşulan qoşmalar içərisində *qarşı* qoşması siyasi natiqin nitqində əksər vaxtlarda tam ziddiyyət məzmunu bildirir. *Haqqında, barəsində, haqda, barədə* qoşmaları Heydər Əliyevin işgüzar-publisistik üslublu çıxışları üçün çox xarakterikdir. *Başqa* qoşması *əlavə* və *savayı* qoşmaları ilə sinonimləşə bilən qoşma olub, Heydər Əliyevin nitqində fikirlər arasına körpü salmaq məqsədi güdür. *Üçün* qoşması böyük natiqin fikrini yekunlaşdırmaq məqamlarında istifadə olunur, məsdərlərə qoşularaq, əsasən, səbəb-məqsəd məzmunu daşıyır. *Əvvəl*, *qabaq* qoşmalarının sinonimi kimi *öncə* qoşması da keçmiş zaman baxımından böyük natiqin dilində tez-tez işlədilir.

15. Qarşılaşdırma bağlayıcıları *lakin*, *ancaq*, *amma* Heydər Əliyevin nitqində yeni bir ideyanın ortaya qoyulacağını göstərir və dialektik ziddiyyətləri vermək məqamlarında işlədilir. *Həm*, *həm də* iştirak bildirən bağlayıcılar böyük natiqin dilində hissələri tamda birləşdirmək, eləcə də bütövü təşkil edən hissələrin sadalanması məqamlarında istifadə olunur. *Ya, ya da* bağlayıcıları Heydər Əliyevin nitqində biri digərinin əksi olan fikirləri ifadə etmək baxımından mühüm rol oynayır. Bəzən bağlayıcılar sözün və cümlənin mənasını qüvvətləndirərək ədat səviyyəsinə yüksəlmiş, bəzən də modal sözlər və ədatlarla çulğalaşaraq mövzunun auditoriyaya çatdırılmasında mühüm rol oynamışdır.

16. Heydər Əliyevin nitqində qüvvətləndirici ədatlar çıxışda ana fikrin, əsas fikrin auditoriyalara çatdırılmasında, gərgin ictimai-siyasi proseslərdə, ölkə həyatının böhranlı anlarında daha çox istifadə olunur. Dəqiqləşdirici ədatlar Ulu Öndərin nitqindəki izahedicilik məziyyətindən kənarda qalmır. Sual ədatları nitqin polemik səciyyə daşımasını təmin edir ki, bu zaman nitq prosesinə bütün dinləyicilər qoşulur. Təsdiq və inkar ədatları güclü iradə sahibi olan Heydər Əliyev şəxsiyyətinin nitqdə qarşıya qoyduğu məsələlərdə prinsipiallıq nümayiş etdirir.

17. Gerçəkliyə münasibətdə təsdiq bildirən *şübhəsiz şübhəsiz ki, əlbəttə* modal sözləri böyük natiqin dilində təkrarlanaraq auditoriyada şübhə yeri qoymur, ölkəmizin ərazi bütövlüyünün təmin olunmasında, sərhədlərin toxunulmazlığında, işğal olunmuş ərazilərin qəsbkarlardan təmizlənməsində güzəştə yer olmayacağını bəyan edir. XX əsrin son mərhələsində dünyada baş verən məhəlli, regional münaqişələrə, insanların rahatlığını pozan toqquşmalara *təəssüf ki* modal sözünün köməyi ilə təəssüf edilir. Natiqlik sənətində hadisələrə natiqin öz baxışlarını, şəxsi fikirlərini bildirən *zənnimcə, fikrimcə* modal sözləri Heydər Əliyev nitqində mühüm yer tutur.

**Dissertasiyanın əsas məzmununu əhatə edən aşağıdakı monoqrafiya, tezis və məqalələr nəşr olunmuşdur:**


1. Nitqin gücü onun səmimiyyətindədir // Azərbaycan. – 2012. 1 yanvar. – s.4.
2. Heydər Əliyevin nitqində fəlsəfi baxışlar // Heydər Əliyev və Regionşünaslıq 3-cü Beynəlxalq elmi konfransın materialları, – 2-4 iyul, – 2012, – s.
3. Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti. Monoqrafiya I hissə / – Bakı: Elm və təhsil, – 2013. – 480 s.
4. Heydər Əliyevin nitqində məntiqi ardıcıllıq // – Sumqayıt: Sumqayıt Dövlət Universitetinin Elmi Xəbərləri, Sosial və humanitar elmlər bölməsi, – 2014, №1, – s.6-10.
5. Heydər Əliyevin nitqində girişlər və sonluqlar // – Bakı: Bakı Qızlar Universitetinin elmi əsərlər, – 2014. № 2, – s. 3-11.
6. Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti. Monoqrafiya. II hissə / – Bakı: Elm və təhsil, – 2014. – 496 s.
7. Научный стиль в речи Гейдара Алиева // – Симферополь: Ученые записки Таврического Национального Университета им. В.И. Вернадского,– 2014. Том 27(66). №4,ч.1. – с.270-275.

8. Heydər Əliyevin nitqində ritorik suallar // – Bakı: Bakı Slavyan Universitetinin elmi əsərləri, – 2014. №1, – s.9 -15.

9. Heydər Əliyevin nitqində sinonimlər // – Bakı: Filologiya məsələləri, – 2014. №3, – s.3-7.

10. Heydər Əliyevin nitqində frazeoloji birləşmələr // – Bakı: Filologiya məsələləri, – 2014. №4, – s.16-21.

11. Heydər Əliyevin nitqində səmimiyyət // – Bakı: Azərbaycan Dillər Universitetinin elmi xəbərləri, – 2014. № 2, – s.32-37.

12. Heydər Əliyevin nitqində ədatların öyrənilməsi // – Bakı: Azərbaycan Dillər Universiteti dil və ədəbiyyat buraxılışı, – 2014. №2, s.16-21.

13. Heydər Əliyevin nitqində modal sözlərin semantik xüsusiyyətləri // – Bakı: Pedaqoji Universitet Xəbərləri, – 2014. № 2, – s.284-289.

14. Heydər Əliyevin nitqində dini üslubun yeri // – Bakı: Filologiya məsələləri, – 2014. №5, – s.102-108.

15. Heydər Əliyevin nitqində qoşmalar // – Bakı: Bakı Universitetinin xəbərləri, Humanitar elmlər seriyası, – 2015. №1, – s.25-32.

16. Heydər Əliyevin çıxışlarında poetik çalarlar // – Bakı: Pedaqoji Universitet Xəbərləri, – 2015. № 1, – s.297-303.

17. Heydər Əliyevin nitqində say nitq hissəsinin üslubi xüsusiyyətləri // – Bakı: Azərbaycan Dillər Universiteti dil və ədəbiyyat buraxılışı, – 2015. №1, – s. 15-21.

18. Heydər Əliyevin nitqində əvəzliklərin yeri // – Bakı: Tədqiqlər, –2015. №1, – s.107-113.

19. Heydər Əliyevin nitqində bağlayıcılar // – Bakı: Bakı Qızlar Universiteti, Elmi əsərlər, – 2015. №2. – s.16-22.

20. Heydər Əliyevin nitqində feillərin leksik məna növləri // AMEA-nın Dilçilik İnstitutunun Əsərləri, – 2015. №2, – s.3-8.

21. Heydər Əliyevin nitqində mürəkkəb cümlələrdən istifadə üsulları // – Sumqayıt: Sumqayıt Dövlət Universitetinin Elmi Xəbərləri, Sosial və humanitar elmlər bölməsi, – 2015. №3, – s.6-12.

22. Heydər Əliyevin nitqində zərf nitq hissəsinin üslubi xüsusiyyətləri // – Bakı: Azərbaycan Dillər Universiteti, Elmi xəbərlər, – 2015. №3, – s.33-41.

23. Heydər Əliyevin nitqində publisistik üslubun bəzi xüsusiyyətləri // Xarici dillərin tədrisinin aktual problemləri. Respublika elmi-praktik konfransının materialları, – Bakı: – 4-5 may, – 2015, – s.176-178.

24. Heydər Əliyevin nitqində etik və estetik fəlsəfi fikirlər // Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmu° VI Beynəlxalq elmi konfransın materialları, II hissə, – 5-7 may, – 2015, – s. 499-502.

25. Heydər Əliyevin nitqində dil etikası // Müasir türkologiya: dünən, bu gün və sabah (problemlər və perspektivlər). Respublika elmi konfransının materialları, – Bakı: – 28 dekabr, – 2016, – s.173-175.

26. Бытовой стиль в речи Гейдара Алиева // – Алматы: «Поиск», Научный журнал-приложение Международного научно-педагогического журнала «Высшая школа Казахыстана», – 2016, №1/2016, – с.92-97.

27. Heydər Əliyevin nitqində "cəsarət" etik kateqoriyası // Xarici dillərin tədrisinin aktual problemləri. Respublika elmi-praktik konfransının materialları, – Bakı: – 5-6 may, – 2016, – s.131-134.

28. Heydər Əliyevin nitqlində "güman edirəm ki" modal sözü // Filologiyanın aktual problemləri. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93 illiyinə həsr olunmuş elmi-nəzəri konfransın materialları, XIX kitab, – Bakı: – 18-19 may, – 2016, – s.12-14.

29. Heydər Əliyevin nitqində dini tolerantlıq // Müasir dilçiliyin aktual problemləri. Beynəlxalq elmi konfransın materialları, – Sumqayıt: – 24 - 25 noyabr, – 2016, – s.111-112.

30. Heydər Əliyevin nitqində ictimai-siyasi dövrlərdən asılı olaraq ədatların paylanması // – Bakı: Dilçilik İnstitutunun əsərləri, – 2017. №2, – s. 175-188.

31. Heydər Əliyevin nitqində ictimai-siyasi dövrlərdən asılı olaraq modal sözlərin paylanması // Akademik Ağamusa Axundovun

85 illiyinə həsr olunmuş "Ağamusa Axundov və Azərbaycan filologiyası" beynəlxalq elmi konfransın materialları, – Bakı: – 24-25 aprel , – 2017, – s.234-237.

32. Heydər Əliyevin nitqlərində islami dəyərlər // Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş VIII beynəlxalq elmi konfransın materialları, – Bakı: – 4-5 may, – 2017, – s. 626-628.

33. Heydər Əliyev nitqinin estetik dünyagörüşün inkişafında rolu // Filologiyanın aktual problemləri (Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş Azərbaycan filologiyasının aktual problemləri mövzusunda elmi-nəzəri konfransın materialları), – Bakı: –17-18 may, – 2017, – s. 3-7.

34. Heydər Əliyevin nitqində feilin şəkilləri // – Bakı: – AMEA Xəbərləri. Humanitar elmlər seriyası, – 2018. №1, – s.207-211.

35. Heydər Əliyevin nitqində təəssüf bildirən modal sözlər // Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş IX beynəlxalq elmi konfransın materialları, – Bakı: – 3-4 may, – 2018, – s. 646-648.

36. Heydər Əliyev nitqində bədii ədəbiyyatın yeri // Filologiyanın aktual problemləri (Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş Azərbaycan filologiyasının aktual problemləri mövzusunda elmi-nəzəri konfransın materialları), – Bakı: –16-17 may, – 2018, – s. 9-13.

37. Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti. Monoqrafiya III hissə / – Bakı: Elm və təhsil, – 2018. – 480 s.

38. Heydər Əliyvin nitqində müxtəlif üslublarda frazeologizmlər // "Azərbaycan və Türkiyə Universitetləri: təhsil, elm, texnologiya" I Beynəlxalq elmi-praktiki konfransın materialları, I hissə, – Bakı: 18-20 dekabr, – 2019, – s. 178-182.

39. Heydər Əliyev nitqinin ekspressivliyi // Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider Heydər

Əliyevin anadan olmasının 95-cü ildönümünə həsr olunmuş X beynəlxalq elmi konfransın materialları, – Bakı: – 7 may, – 2019, – s. 473-476.

40. Heydər Əliyev nitqində əsas nitq hissələrinin üslubi xüsusiyyətləri // Filologiyanın aktual problemləri (Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş Azərbaycan filologiyasının aktual problemləri mövzusunda elmi-nəzəri konfransın materialları), – Bakı: – 15 may, – 2019, – s. 3-9.

41. Heydər Əliyvin nitqlərində frazeologizmlərin yeri // Görkəmli dilçi alim, türkoloq və ictimai xadim Afad Qurbanovun 90 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransın materialları. Bakı: – 24 may, – 2019, – s.171-173.

42. Introductions and conclusions in Heydar Aliyevs speeches // – Florence: Ponte (Multidisciplinary Journal of Sciences and Research), – 2019. Vol.75, İssue 08, Aug, 2019, http // dx.doi.org/10.21506/j.ponte.2019.8.4

43. Phraseologisms and their combination with other parts and expressions to the speeches of Heydar Aliyev // The International scientific-practical conference, dedicated to the 150th anniversary of Abdurrahman bey Haqverdiyev, science and education in the 21st century: theory and practice – Kars,Turkey: – 20-21 February, – 2020, – p. 106-110.

44. Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti. Monoqrafiya III hissə / – Bakı: Elm və təhsil, – 2020. – 520 s.

45. Subsidary parts of speech in speeches of Heydar Aliyev // IKSAD İnternational Coongress on social sciences, – Szichenyi İstvan University, Hungary : – 26-28 March, – 2021, – p.430-435.

46. Rhetorical Questions in Political Speech // Traektoria Nauki - Path of Science, – 2022. Vol, 8, No 8, – p.4001-4005.

47. Numeral as a part of speech as a means of expressivenss in Heydar Aliyev's speech // IV İnternational Halich Congress on Multidisciplinary Scientific Research, İstanbul, Tuirkey: – 4-5 August , – 2022, – p.61-68.

48. Стилистические элементы в речи Г.Алиева // – Казан: Казанская наука, – 2022. №9, – с. 137-140.

49. Expressiveness of modal words in Heydar Aliyev s speech. // AD ALTA: Journal of İnterdisciplinary research.special issue no – 2022. :12/01/XXVII. (VOL.12, İSSUE1, ) special issue XXVII, – p.160-163.

50. Heydər Əliyevin Azərbaycan dili uğrunda mübarizəsi // Heydər Əliyevin dil siyasəti və ana dilinin müasir problemləri mövzusunda respublika elmi konfransının materialları), – Bakı: – 12 iyul, – 2023, – s. 90-94.

Dissertasiyanın müdafiəsi 22 Oktyabr 2024-cü il tarixində saat 11:00-da Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.06 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti 115, V mərtəbə, AMEA Nəsimi adına Dilçilik İnstitutu.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun kitabxanasında tanış olmaq olar.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir .

Avtoreferat 20 Sentyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 13.09.2024
Kağızın formatı: 60x84 16
Həcm: 79 930 işarə
Tiraj: 100